

Milli azadlıqdan
şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

30 aprel 2025-ci il, çərşənbə
№ 072 (6900)
Qiymət 60 qəpik


# İran Prezidenti: Azərbaycanın Qarabağda və Azərbaycanın sahib çıxmalı olduğu digər ərazilər üzərindəki hüququnu tanıyırıq



Bax səh. 2

## Qlobal Cənubun ümid yeri

Bax səh. 4

## Dünya mədəni irsinə qarşı törədilmiş cinayət...

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Maliki aprelin 29-da Qərbi Azərbaycan İcmasını ziyarət edib. Baş direktorun İcmanın İdarə Heyətinin sədri Əziz Ələkbərli, Müşahidə Şurasının sədri Misir Mərdanov və icmanın rəhbərliyində təmsil olunan digər şəxslərlə keçirdiyi görüşdə mədəni irsin qorunması, təhsil və elmi araşdırmalar vasitəsilə İslam irsi üzrə həqiqətlərin üzə çıxarılması və mədəniyyətlərarası dialoq məsələləri üzrə fikir mübadiləsi aparılıb.

İcma nümayəndələri azərbaycanlıların indiki Ermənistan ərazisindən etnik təmizləməyə məruz qalması nəticəsində onların əsas hüquqlarının, o cümlədən mədəni və təhsil hüquqlarının pozulması, oradakı Azərbaycan mədəni irsinin məhv edilməsi barədə ICESCO rəhbərinə məlumat verib, İslam Əməkdaşlıq Təşkilatının 2024-cü il Banjul Zirvə görüşünün qərarlarına və ICESCO-nun mandatına uyğun olaraq təşkilatın bu məsələlər üzrə səylərinə ümid bəslədiklərini bildiriblər. Vurğulanıb ki, Qərbi Azərbaycan ərazisindəki mədəni irs nümunələrimiz təkcə Azərbaycan xalqının mədəniyyət nümunələri deyil, eyni zamanda, İslam dünyasının və...

Bax səh. 2



Bax səh. 3

## 6-cı səfər...

### Siyasi partiya sədrlərinin birgə səfərlərinin növbəti ünvanı Laçın şəhəridir

## İqtisadi münasibətlərdə yeni səhifə

Prezident Məsud Pezeşkianın ölkəmizə səfəri Azərbaycan-İran iqtisadi münasibətlərində yeni səhifə açmaqla, birgə layihələrin və eləcə də regional əməkdaşlıq platformasının möhkəmlənməsinə dərin zəmin yaradır. İranın dövlət başçısının böyük heyətlə Azərbaycana gəlməsi və bir çox önəmli sənədlərin imzalanması, o cümlədən Prezidentlər səviyyəsində imzalanmış sənəd bir daha tərəflərin xoş niyyətini göstərir.

Dövlət başçılarının apardıqları danışıqlar və fikir mübadiləsi bir çox önəmli məsələlər barədə ortaq baxışları əks etdirməklə, yeni əməkdaşlıq gündəliyinin müəyyən edilməsində mühüm rol oynamış olur. Prezident İlham Əliyevin bəyan etdiyi kimi Azərbaycan-İran strateji münasibətlərini bir daha təsdiqlədik və bütün məsələlərdə səmimi şərait əsnasında razılaşmalar əldə olundu. Əsas məsələ ondan ibarətdir ki, hər iki tərəf əlaqələrin inkişafına çalışır.

Azərbaycanın dövlət başçısının bəyan etdiyi kimi hazırda çoxtərəfli əməkdaşlıq üçün gözəl şərait var və bu möhkəm sütunlar üzərində iqtisadi- ticarət əlaqələri inkişaf etdirmək üçün iradə də mövcuddur...

Bax səh. 4

## İnkişafımızın düsturu...

Ölkəmizdə həyata keçirilən islahatlar kursu fonunda insan hüquqlarının müdafiəsi, vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti, o cümlədən təhsil, səhiyyə, mədəniyyət və innovasiyalar sahəsində xeyli nailiyyətlər əldə olunub. Bir sözlə, bütün sahələrin inkişafı milli maraqlar, xalqın rəyi nəzərə alınmaqla kompleks şəkildə həyata keçirilir. Ölkə rəhbəri rifah halının yüksəldilməsi, sosial sferanın, elmin və innovasiyanın təkmilləşdirilməsi istiqamətində qarşıya aydın məqsədlər qoyub. Bu cür təşəbbüslər respublikanı dünyanın inkişaf etmiş ölkələri sırasına çıxarmaq, milli iqtisadiyyatın beynəlxalq reytinqlərdə mövqeyini möhkəmləndirmək məqsədi daşıyır.

Ölkənin əsas məqsədlərdən biri də güclü vətəndaş cəmiyyətinin formalaşmasını təmin etməkdir. Məhz belə bir vətəndaş cəmiyyəti ictimai və dövlət maraqlarının səmərəli müdafiəsinə zəmanət verə, neqativ amillərin qarşısını ala bilər. Demokratik və hüquqi dövlət quruculuğu prosesinin mühüm tərkib hissəsi olan vətəndaş cəmiyyəti institutları milli birliyin daha da gücləndirilməsi işinə böyük töhfələr verir.

Azərbaycan eyni zamanda regionda sülhə, sabitliyə və iqtisadi rifaha nail olmağa yönəlmiş açıq və praqmatik xarici siyasət yürüdür. Bütün bunlar ictimai və dövlət maraqlarının müdafiəsinə kompleks...

Bax səh. 6

## XİN: Azərbaycana qarşı bəyanatı qətiyyətlə rədd edirik



Bax səh. 2

## Çin Azərbaycana minatəmizləmə sahəsində dəstəyini davam etdirəcək

Azərbaycan dünyada mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biridir. 30 illik işğal dövründə Ermənistan xeyli sayda hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru da əsas yerlərdən birini tutur. Ermənistanın mina terroru hələ də davam edir. Təkcə aprel ayında işğaldan azad edilmiş ərazilərimizdə bir neçə mina partlaması hadisəsi baş verib. Aprelin 2-də  Ağdam rayonunun Çəmənli kəndi ərazisində 1968-ci il təvəllüdlü Ağdam rayon sakini Nurəddin Feyzi oğlu Abbasov, aprelin 6-da  Cəbrayıl rayonunun Mehdili kəndi ərazisində ANAMA-nın əməkdaşı 1991-ci il təvəllüdlü Heydər Əli oğlu Xankişiyev,  Ağdam rayonunun Qalayçılar kənd sakini, 1983-cü il təvəllüdlü Səbuhi Elman oğlu Məmmədov və iki azyaşlı övladı,  aprelin 28-də isə Qazax rayonunun Qızılhacılı kəndində ANAMA-nın əməkdaşı, 1985-ci il təvəllüdlü Elnur Oruc oğlu Paşayev minaya düşərək müxtəlif dərəcəli xəsarət alıblar.

Bütövlükdə, 2020-ci il müharibəsindən bəri 400 nəfərə yaxın Azərbaycan vətəndaşı...

Bax səh. 6

## Fransa yeni problemlə üz-üzə



Bax səh. 6

## Liberal Partiya növbəti qələbəsini qazandı




Bax səh. 7

# İran Prezidenti: Azərbaycanın Qarabağda və Azərbaycanın sahib çıxmalı olduğu digər ərazilər üzərindəki hüququnu tanıyırıq

## Bakı-Tehran əlaqələri yeni formatda...

Müasir Azərbaycanın əldə etdiyi inkişaf tempi, formalaşdırdığı siyasi reallıqlar ölkəmizin yerləşdiyi regionun lider dövlətinə çevrilməsi ilə yanaşı, beynəlxalq aləmdə yaxın tərəfdaş qismində qəbul olunmasında əsaslı rol oynayıb. Bu gün Azərbaycan dünyanın aparıcı dövlətləri, o cümlədən beynəlxalq təşkilatlar ilə ikitərəfli əlaqələrə malikdir. Bu əlaqələr isə dünyanın çoxsaylı dövlətlərinin ölkəmizə olan iqtisadi marağının artmasına imkan yaradır. Azərbaycan bu gün nəinki regionun, dünyanın siyasi cəhətdən ən sabit ölkələrindən biri sayılır. Eyni zamanda, Azərbaycan dövləti hər zaman yaxın qonşuluq münasibətlərinə üstünlük verir. 30 ilə yaxın Azərbaycan torpaqlarını işğal altında saxlayan təcavüzkar Ermənistanı çıxmaq şərtilə dövlətimiz bütün qonşuları ilə yaxın iqtisadi-siyasi münasibətlərə malikdir. Bu gün məhz Azərbaycanın iştirakı və təşəbbüsü ilə bir neçə istiqamətdə regional və qlobal layihələr icra olunur, dövlətlərarası əlaqələr qurulur, genişləndirilir.

## Geniş, əhatəli və daha yaxşı strateji plan

Vurğulandığı kimi, ölkəmizin yürütdüyü dövlət siyasətində qonşu ölkələrlə əlaqələrin inkişafı xüsusi yer tutur. Azərbaycan hər zaman öz qonşuları ilə əlaqələrin möhkəmləndirməsi, daha da yaxınlaşdırılması istiqamətində fəaliyyət göstərir. Yerləşdiyimiz Cənubi Qafqaz regionu geosiyasi baxımdan strateji əhəmiyyət daşıdığı üçün region ölkələrinin yaxın qonşuluq münasibətləri zəminində əməkdaşlığına hər zaman böyük ehtiyac duyulub. Bu amil həm də həyati əhəmiyyət kəsb etməkdədir. Xüsusilə, yeni siyasi-iqtisadi reallıqlar regonal əməkdaşlığın inkişafına böyük töhfələr verir. Dünya ölkələri ilə müsbət tərəfdaşlıq münasibətlərinin inkişafına hər zaman önəm verən Azərbaycan regionda planlaşdırılan layihələrdə qonşu dövlətlərin iştirakında maraqlı olduğunu önə çəkir. Bu mənada, İran İslam Respublikasının da Azərbaycanla əlaqələrinin daha da yüksəldilməsi istiqamətində aparılan siyasət əhəmiyyət kəsb edir. Yeni dövr üçün isə əlaqələrin yeni mərhələdə inkişafına ehtiyac duyulur - yeni çağırışlara, bölgənin yeni statusuna və iqtisadi potensialına uyğun münasibətlər sisteminin qurulması hər iki ölkə üçün olduqca böyük dividendlər vəd edir. İran Prezidenti Məsud Pezeşkianın aprelin 28-də Bakıya rəsmi səfəri çərçivəsində keçirilən mətbuat konfransında çıxış edən Prezident İlham Əliyev bildirib ki, bu gün apardığımız danışıqlar və fikir mübadiləsi əsnasında bir çox önəmli məsələlər haqqında söhbət etdik, fikirlərimizi bildirdik, Azərbaycan-İran strateji münasibətlərini bir daha təsdiqlədik "Əsas məsələ ondan ibarətdir ki, hər iki tərəf Azərbaycan-İran əlaqələrinin inkişafına çalışmalıdır və çalışır. Hörmətli Prezidentin böyük heyətlə Azərbaycana gəlməsi və bu gün bir çox önəmli sənədlərin imzalanması, o cümlədən prezidentlər səviyyəsində imzalanmış sənəd bir daha bizim xoş niyyətimizi göstərir, onu göstərir ki, biz bütün istiqamətlər üzrə bir-birimizə daha yaxın olmağa çalışırıq".



Öz növbəsində İran Prezidenti də bildirib ki, əldə edilmiş razılaşmalara, imzalanmış sənədlərə əsasən, Prezident İlham Əliyev müəyyən müddət çərçivəsində gələcək üçün strateji planın hazırlanması haqqında müvafiq nazirlərə, məsul şəxslərə göstəriş verib: "Biz də öz tərəfimizdən xarici işlər nazirinə tapşırıq verdik ki, hökumətlə razılaşdırıb, bu addımları davam etdirsin. Çalışacağıq ki, gələcək üçün geniş, əhatəli və daha yaxşı strateji planımız olsun".

Azərbaycan qlobal məkanın gənc, amma qətiyyəti, birlik və həmrəylik təşəbbüsləri ilə seçilən bir üzvü olaraq əlaqələrin, münasibətlərin beynəlxalq hüquqa əsaslanan prisiplər üzərində qurulmasını təşviq edir. Bu mənada, Azərbaycana xas olan çoxtərəflilik konseptual olaraq fərdi maraqları deyil, ümumən regional, hətta qlobal maraqları, dəyərləri qorumağı özündə ehtiva edir -Azərbaycan öz xarici siyasətini

## Gələcək birgə əməkdaşlıq çərçivələri

konstruktiv, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, regional və qlobal miqyasda sabitliyə xidmət edən xətt üzrə yürüdür.

Paralel olaraq müasir qlobal çağırışları əsas götürən, beynəlxalq təşkilatlarda aktiv mövqe tutan ölkəmizin apardığı çoxvektorlu xarici siyasət kursu yerləşdiyi geocoğrafi məkanın sabit inkişafına hədəflənir. Azərbaycan Cənubi Qafqaz da daxil olmaqla hətta sərhəddindən kənarda yerləşən ölkələr üçün də sabitləşdirici faktor kimi çıxış edir. İran ilə münasibətlərə də eyni kontekstdən yanaşa bilərik - Azərbaycan ənənəvi olaraq rəsmi Tehranı beynəlxalq təşkilatlar çərçivəsində dəstəkləyir. Prezident İlham Əliyev öz çıxışında bildirib ki, biz beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi ənənəvi olaraq dəstəkləyirik. Bu barədə bu gün də fikir mübadiləsi aparıldı və gələcək birgə əməkdaşlıq çərçivələri müzakirə edildi: "İstər BMT olsun, istər İslam Əməkdaşlıq Təşkilatı, ECO, Qoşulmama Hərəkatı və digər təşkilatlar çərçivəsində daim bizim nümayəndələrimiz bir-birinin yanındadır. Biz bu gün geniş gündəlik əsasında fəaliyyət göstəririk. Burada həm regional təhlükəsizlik məsələləri önəmli rol oynayır, - bu barədə fikir mübadiləsi aparılmışdır, - eyni zamanda, çoxtərəfli əməkdaşlıq üçün gözəl şərait var".



## İkitərəfli münasibətlərdə mühüm prinsiplər...

Bölgənin təhlükəsiz inkişafı üçün isə ən əsas amil sülh və sabitlikdir. 2020-ci il Vətən müharibəsi, 2023-cü il antiterror tədbirləri nəticəsində Azərabycan regionda yeni bir mühit - əməkdaşlıqların inkişafı üçün münbit mühit yaradıb. Bu, həm regional, həm də ikitərəfli münasibətlərin inkişafı üçün zəmindir. Hər bir dövlət üçün Azərbaycanın beynəlxalq hüquqa yanaşma metodologiyası isə nümunəyə çevrilməlidir - biz, istər əməkdaşlığı, istərsə də ikitərəli əlaqələri bərabərsəviyyəli, bərabərhüquqlu əsaslarla inkişaf etdiririk. Dövlətlərin apardıqları daxili siyasətə qarışmırıq, suverenlik və ya ərazi bütövlüyü ilə bağlı məsələlərə beynəlxalq hüquq prizmasından baxış sərgiləyirik. Prezident İlham Əliyev deyib ki, ikitərəfli formatda bölgədəki vəziyyət, sülhün dayanıqlı olması, əmin-amanlığın təmin edilməsi, ölkələrin suverenliyi, ərazi bütövlüyü, ölkələrin daxili işlərinə qarışmama kimi prinsiplər də üstün tutuldu.

Prezident Məsud Pezeşkian da vurğulayıb ki, bütün sahələrdə əməkdaşlıq edə bilərik. Elə bir bölgə yarada, ölkələr arasında elə bir əlaqə qura bilərik ki, Avropa ölkələri arasında olan əlaqələrdən daha üstün olsun.



Etiraf edilməlidir ki, post-müharibə dövründə bəzi iranlı diplomatların Qarabağla, eləcə də Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesi ilə bağlı fikirləri Azərbaycan cəmiyyəti tərəfindən birmənalı qarşılanmayıb. Bəzi hallarda fərqli ünvanlardan səslənən fikirlərdə hətta fərqli tonlar belə hiss olunub - amma artıq situasiya dəyişib. İran dövləti rəsmi şəkildə Azərbaycanın apardığı haqq işini dəstəklədiyini bəyan edir. Prezident İlham Əliyevin İranın dövlət başçısı ilə geniş tərkibdə görüşü zamanı Məsud Pezeşkian bildirib ki, Sizin, Azərbaycanın və əziz Azərbaycan xalqının Qarabağda və Azərbaycanın sahib çıxmalı olduğu digər ərazilər üzərindəki hüququnu tanıyırıq: "Biz inanırıq ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və buna hörmətlə yanaşırıq. Təbii ki, bizim burada olmağımız əlaqələrimizin və birliyimizin möhkəmlənməsinə imkan yaradacaq".

## Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir...

***P.İSMAYILOV***

---

# XİN: Azərbaycana qarşı bəyanatı qətiyyətlə rədd edirik




Aprelin 29-da Avropa Şurasının (AŞ) insan hüquqları üzrə komissarı Maykl O'Flahertinin Azərbaycanda aparılan bəzi istintaq işləri, habelə bu yaxınlarda verilmiş məhkəmə qərarları ilə bağlı səsləndirdiyi qəbuledilməz, əsassız və tamamilə qərəzli bəyanatını qətiyyətlə rədd edirik.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Maykl O'Flahertinin Azərbaycan əleyhinə bəyanatını şərh edərkən deyib.

O, sözügedən bəyanatı Azərbaycanın daxili işlərinə və məhkəmə proseslərinə davam edən müdaxilə istiqamətində növbəti uğursuz cəhd adlandırıb.

Ayxan Hacızadə bildirib ki, milli qanunvericiliyə, beynəlxalq öhdəliklərə uyğun olaraq Azərbaycan Respublikasında insan hüquq və əsas azadlıqlarına təminat verilir və onlara tam hörmət edilir. Bununla yanaşı, sözügedən hüquq və azadlıqlar Azərbaycanın öz vəzifələrini yerinə yetirmək üçün müstəqil şəkildə fəaliyyət göstərən köklü məhkəmə institutları tərəfindən qorunur.

"Azərbaycanın öz suveren ərazilərində qanunun aliliyinə verdiyi təminat bəzi şəxslərə peşə fəaliyyətlərinə görə xüsusi imtiyazlar vermir, habelə onları ölkə qanunlarının tələblərinə əməl etməkdən azad etmir. Eyni zamanda, insan hüquqları üzrə komissarın bəyanatında adıçəkilən şəxslərə qarşı müvafiq qanunvericiliyin tələblərinin kobud şəkildə pozulması ilə bağlı ittiham irəli sürülüb, cinayət-prosessual məcəlləyə ciddi riayət edilməklə müvafiq araşdırmalar aparılıb, onların məhkəmə qarşısında bütün hüquqları tam təmin edilib.

Biz Avropa Şurasının insan hüquqları üzrə ali komissarını Azərbaycanın müstəqil məhkəmə orqanlarında davam edən araşdırmalara müdaxilə etməkdən, habelə qəbuledilməz təzyiq göstərmək cəhdlərindən çəkinməyə, əvəzində isə diqqəti bir sıra digər AŞ ölkələrində insan hüquqları sahəsində mövcud çoxsaylı sistematik problemlərə, artan İslamofobiyaya, miqrantlara və sığınacaq axtaran şəxslərə qarşı ləyaqəti alçaldan rəftara, siyasi təqiblərə, həbsxanalarda baş verən ölüm hallarına, Avropa institutlarında geniş yayılmış korrupsiyaya və s. fokuslanmağa çağırırıq", - deyə XİN-in rəsmisi vurğulayıb.

# Dünya mədəni irsinə qarşı törədilmiş cinayət...

## ICESCO-nun Baş direktoru QAİ-də olub



İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Maliki aprelin 29-da Qərbi Azərbaycan İcmasını ziyarət edib. Baş direktorun İcmanın İdarə Heyətinin sədri Əziz Ələkbərli, Müşahidə Şurasının sədri Misir Mərdanov və icmanın rəhbərliyində təmsil olunan digər şəxslərlə keçirdiyi görüşdə mədəni irsin qorunması, təhsil və elmi araşdırmalar vasitəsilə İslam irsi üzrə həqiqətlərin üzə çıxarılması və mədəniyyətlərarası dialoq məsələləri üzrə fikir mübadiləsi aparılıb.

İcma nümayəndələri azərbaycanlıların indiki Ermənistan ərazisindən etnik təmizləməyə məruz qalması nəticəsində onların əsas hüquqlarının, o cümlədən mədəni və təhsil hüquqlarının pozulması, oradakı Azərbaycan mədəni irsinin məhv edilməsi barədə ICESCO rəhbərinə məlumat verib, İslam Əməkdaşlıq Təşkilatının 2024-cü il Banjul Zirvə görüşünün qərarlarına və ICESCO-nun mandatına uyğun olaraq təşkilatın bu məsələlər üzrə səylərinə ümid bəslədiklərini bildiriblər. Vurğulanıb ki, Qərbi Azərbaycan ərazisindəki mədəni irs nümunələrimiz təkcə Azərbaycan xalqının mədəniyyət nümunələri deyil, eyni zamanda, İslam dünyasının və bütövlükdə dünya mədəni irsinin nümunələridir.

Əziz Ələkbərli deyib ki, bu abidələrin dağıdılması dünya mədəni irsinə qarşı törədilmiş cinayətdir: "Hazırda Qərbi Azərbaycan İcmasında Qərbi Azərbaycan ərazisindəki mədəniyyət abidələrimizin dəqiq qeydiyyatı var. Biz bu abidələrin mövcud vəziyyəti ilə bağlı beynəlxalq təşkilatlara, o cümlədən də ICESCO-ya məlumatlarımızı təqdim edəcəyik. Şübhəsiz, çalışacağıq ki, onların imkanlarından istifadə edərək, indiki Ermənistan ərazisində - Qərbi Azərbaycanda Azərbaycan və müsəlman mədəni irs nümunələrinin dağıdılmasının qarşısı alınsın".

O, bu yaxınlarda İrəvan şəhərindəki sonuncu Azərbaycan yaşayış məntəqəsi olan Təpəbaşı məhəlləsi, oradakı mədəniyyət abidələri, o cümlədən Abbasqulu Xan İrəvanskinin inşa etdirdiyi Təpəbaşı məscidi ilə bağlı da UNESCO-ya, həmçinin beynəlxalq təşkilatlara müraciət olunduğunu bildirərək deyib: "Həmin ərazilərin, yəni tarixi bölgə statusunu daşıyan yaşayış məntəqəsi və onun ətrafında yerləşən abidələrin dağıdılmasının qarşısının alınması ilə bağlı təcili öz səsimizi ucaltdıq".

ICESCO-nun rəhbərliyi Azərbaycandakı etnik və dini müxtəlifliyi, tolerant mühiti, ölkəmizin mədəniyyətlərarası dialoqa və təşkilatın fəaliyyətinə verdiyi töhfələri təqdir edib, Qərbi Azərbaycan İcmasının beynəlxalq hüquqa əsaslanan sülhsevər yanaşmasını alqışlayıb, İslam irsi üzrə həqiqətlərin üzə çıxarılmasının, mədəni irsin qorunmasının sülh və anlaşma üçün əhəmiyyətini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər üzrə praktik əməkdaşlıq istiqamətləri nəzərdən keçirilib.

# Birləşmiş Krallığın dövlət naziri Ermənistanın mina təhdidi barədə məlumatlandırılıb




Aprelin 29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Birləşmiş Krallığın Avropa, Şimali Amerika və dənizaşırı ərazilər üzrə dövlət naziri Stiven Dauti arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, telefon danışığı zamanı iki ölkə arasında gündəlikdə duran məsələlər, ikitərəfli və regional əməkdaşlıq mövzuları, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Ceyhun Bayramov qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, habelə mina təhdidi barədə məlumatlandırıb. O, Ermənistanla normallaşma gündəliyinə də toxunaraq, Azərbaycan tərəfinin təşəbbüskarı olduğu sülh sazişi üzrə danışıqlar prosesində əldə olunmuş irəliləyişlər və bu prosesin uğurla yekunlaşmasının qarşısında duran əsas maneələrdən bəhs edib. Ermənistan Konstitusiyası və digər qanunvericilik aktlarında ölkəmizə qarşı ərazi iddialarından imtina edilməsinin Cənubi Qafqazda dayanıqlı sülhə nail olunması baxımından müstəsna əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Telefon danışığında, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



# 6-cı səfər...

## Siyasi partiya sədrlərinin birgə səfərlərinin növbəti ünvanı Laçın şəhəridir



Ölkəmizdə fəal şəkildə təşviq olunan siyasi dialoq mühiti və bununla əlaqədar formalaşmaqda olan yeni siyasi mədəniyyət çərçivəsində siyasi partiya sədrlərinin işğaldan azad edilmiş ərazilərə birgə səfərlərinin təşkili Azərbaycan ictimaiyyəti tərəfindən artıq müsbət demokratik ənənə kimi qəbul olunur. Milli həmrəylik təzahürü ilə təcəssüm olunan və ictimaiyyət tərəfindən təqdir edilən bu demokratik təcrübə siyasi proseslərdə iştirak edən tərəflər arasında etibarlı və işgüzar münasibətləri daha da dərinləşdirir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə təşviq olunan siyasi dialoq mühiti çərçivəsində mütəmadi şəkildə müxtəlif səpgili layihələr icra edilir. Görüşlər, açıq müzakirələr, teledebatlar, peşəkar diskussiyalar, birgə səfərlər, konfranslar və bu kimi digər layihələr siyasi proseslərdə iştirak edən tərəflər arasında etibarlı əməkdaşlıq münasibətlərinin bərqərar olunmasına xidmət göstərir. Azərbaycan ictimaiyyəti təqribən son beş il ərzində iqtidarın mövcud istiqamətdəki davamlı təşəbbüslərinin şahididir. Siyasi dialoq ilə əlaqədar hökumət tərəfindən atılan bütün təşəbbüslər mediada açıq şəkildə işıqlandırılır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev öz çıxış və müsahibələrində siyasətdə sağlam münasibətlərin bərqərar olunması, siyasi dialoq mühitinin əhəmiyyəti və konstruktiv əməkdaşlığın vacibliyi kimi önəmli demokratik məzmunlu təzahürləri prinsipial və davamlı şəkildə qeyd edir.

Siyasi partiya rəhbərlərinin işğaldan azad olunmuş ərazilərə birgə səfərlərinin təşkili təcrübəsi konkret məsələlərin müzakirəsi üçün işgüzar mühiti yaratmaqla tərəflər arasında konstruktiv əməkdaşlığı təşviq edir. Xatırladaq ki, sağlam və səmərəli əməkdaşlıq mühitinin bərqərar olunmasına xidmət edən siyasi partiya rəhbərlərinin birgə səfərləri daha əvvəl Ağdam, Şuşa (2 dəfə), Zəngilan, Xocalı, Əsgəran və Xankəndiyə təşkil olunub.

Ölkəmizdə yaşanan siyasi dialoq mühiti sayəsində müxalif siyasi partiyalar, eyni zamanda, beynəlxalq tədbirlərdə də tərəf müqabili kimi iştirak edirlər. Belə ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə birgə səfərlərlə yanaşı, ölkə siyasiləri, həmçinin Şuşa Bəyannaməsinin birinci ildönümü ilə əlaqədar 2022-ci il iyunun 15-də Şuşa şəhərində keçirilmiş “Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir” adlı beynəlxalq konfransa da qatılıblar. Bununla da siyasi partiyalar cəmiyyətin intellektual potensialının səfərbər edilməsi kimi dövlət üçün mühüm və strateji vəzifənin icrasını təmin etmiş olurlar.

AZƏRTAC xəbər verir ki, növbəti, artıq sayca 6-cı olan birgə səfərin ünvanı Laçındır. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə aprelin 29-də həyata keçirilmiş səfərdə ümumilikdə 80 nəfər olmaqla, 24 siyasi partiyanın sədr və nümayəndələri, habelə politoloq, siyasi şərhçi, internet televiziyalarının rəhbərləri, qəzet redaktorları və digər jurnalistlər iştirak ediblər. Səfər çərçivəsində Zabuxçay su anbarı, Laçın şəhəri, o cümlədən Heydər Əliyev küçəsi, “Lacinema” kino mərkəzi, “Hoçazfilm” kinopavilyonu və Bəylik kəndində aparılan bərpa və yenidənqurma işləri ilə tanışlıq olub, habelə “Zerti Aqro-Sənaye Parkı”nda fəaliyyət göstərən müəssisələr haqında ətraflı məlumatlar verilib.



Səfər zamanı Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Laçın şəhərində iştirakçılar qarşısında çıxış edərək ötən dövr ərzində Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə davamlı şəkildə təşviq olunan həmrəylik mühitinin strateji əhəmiyyəti və mövcud istiqamətdə görülmüş işlər haqqında geniş məlumat verib.

Ölkədə həmrəylik mühitinin qorunmasında siyasi partiyaların müstəsna əhəmiyyətini vurğulayan Administrasiya rəsmisi qeyd edib ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbə bütün dünya azərbaycanlılarının qürur mənbəyidir. Vətənpərvər qüvvələri birləşdirən əsas amilin milli maraqlar və dövlətçilik mövqeyi olduğunu bildirən Ədalət Vəliyev bildirib ki, Laçının timsalında işğaldan azad olunmuş bütün ərazilərdə aparılan bərpa-quruculuq işlərinin səviyyəsi haqqında təsəvvürlər formalaşa bilər. İşğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı müasir Azərbaycan tarixinin ən qürurlu səhifələrindən olduğunu bildirən Administrasiya rəsmisi mövcud istiqamətdə Prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş müvafiq dövlət proqramlarından da söhbət açıb.

Suverenliyin tam bərpasının Azərbaycan tarixinin mahiyyət və keyfiyyət etibarilə yeni inkişaf mərhələsi olduğunu xüsusi vurğulayan Ədalət Vəliyev diqqətə çatdırıb ki, ölkəmizdə yaşanan milli həmrəylik mühiti sabitlik və dayanıqlı inkişafın zəmanətidir. Siyasi dialoqda fəal iştirak edən siyasi partiyalar həmrəylik mühitinin qorunmasına öz töhfələrini verirlər. Odur ki, siyasi partiyaların Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan bu cür layihələrdə fəal iştirakı bilavasitə milli və siyasi həmrəyliyin təzahürüdür.

Səfər çərçivəsində siyasilər Laçının iqtisadi, habelə turizm potensialı ilə də tanış olublar. İştirakçılara bildirilib ki, Laçının turizm potensialı digər rayonlarda yaradılacaq turizm imkanları ilə də uzlaşdırılacaq. Burada hotellər, istirahət zonaları yaradılacaq və kənd turizmi də inkişaf etdiriləcək. Nəzərə alınmalıdır ki, yaradılacaq yeni infrastruktur layihələri Qarabağa qayıdacaq insanlar üçün məşğulluq və gəlir mənbəyi olacaq.

Hökumətin bu cür təşəbbüslərində siyasi partiyaların fəal iştirakı sayəsində siyasətdə konstruktiv əməkdaşlıq, dövlət naminə şəxsi ambisiyalardan imtina olunması, milli həmrəylik, habelə etibarlı münasibətlər təmin edilir. Əlamətdar və müsbət haldır ki, sözügedən səfərlər Prezident İlham Əliyevin yerlərdə yeni yaşayış məkanların rəsmi açılışlardan və Qarabağa köçmüş sakinlər ilə görüşlərdən sonra təşkil olunur. Sözügedən hal bir daha ölkəmizdə sağlam iqtidar-müxalifət münasibətlərinin mövcudluğundan xəbər verir.





# Azərbaycan-İran: Tarixi bağlara əsaslanan mədəni-humanitar əlaqələr

Ölkələr və xalqlar üçün qonşu olmaq həm məsuliyyət, həm də taledir. Azərbaycan ilə İranı da çoxəsrlik qonşuluq əlaqələri birəşdirir. Bu günlərdə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın böyük nümayəndə heyəti ilə Azərbaycana səfərə gəlməsi və Prezident İlham Əliyev tərəfindən böyük rəğbətlə, qonaqpərvərliklə qarşılanması ona dəlalət edir ki, hər iki tərəf həm dövlətlər, həm də cəmiyyətər səviyyəsində qonşuluq münasibətlərinin bundan sonra da dərinəşməsində və daha da möhkəmlənməsində maraqlıdır. Buna əsaslar da var. Səfər çərçivəsində keçirlən tədbirlərdə iki ölkə arasında tarixi bağların, mədəni-humanitar əlaqələrin, hətta qohumluq münasibətlərinin olduğuna xüsusi diqqət çəkilib. “Biz bu gün, eyni zamanda, humanitar sahədə, mədəniyyət sahəsində ənənəvi dostluq əlaqələrinin davam etdirilməsi üçün konkret göstərişlər verdik. Müəyyən etdik ki, sonuncu qarşılıqlı mədəniyyət günləri səkkiz il bundan əvvəl keçirilmişdir və birgə qərar əsasında yaxın gələcəkdə qarşılıqlı mədəniyyət günləri keçiriləcək. Xalqlarımızın tarixi ortaqdır, mədəniyyətimiz də ortaqdır. Biz əsrlər boyu bir məkanda yaşamışıq, bir dövlət çərçivəsində yaşamışıq. Yəni qohumluq əlaqələri də çox genişdir. Bu gün iki müstəqil dövlət kimi biz bölgəmizdə önəmli rol oynayırıq. Bölgə məsələlərinin bölgə ölkələri tərəfindən həll olunması da hər iki tərəfin fikridir və siyasətidir”, - deyə Prezident İlham Əliyev mətbuata bəyanatında vurğulayıb.

## Oxşar zəngin mədəni irs

Qonşu coğrafiyalarda yerləşən Azərbaycan və İran tarixən oxşar mədəniyyətləri bölüşüblər. Xalqlarımızın həyat tərzi, ruhu bir-birinə çox yaxındir. İran Prezidenti Məsud Pezeşkian da buna xüsusi vurğu edib. Səmimiyyətlə Bakıda özünü Təbrizdə Ərdəbildə olduğu kimi hiss etdiyini bildirən M.Pezeşkian bildirib ki, bizim bu bölgədə mədəniyyət, din, etiqad, siyasət kimi bütün bu sahələrdə həddindən artıq oxşar cəhətlərimiz var. Bununla fəxr edirik. Bunlara ürəkdən bağlıyıq.

Həm Azərbaycan, həm də İran ayrııqda zəngin mədəni irsə malikdirlər. Eyni zamanda, bu zəngin mədəni irs xalqlarımız arasında sıx bağlantı qismində çıxış edib. İki ölkə arasında mədəni-humanitar sahədə əlaqələr, necə deyərlər, xüsusi göstərişər və direktivlər əsasında qurulmayıb, öz təbii axarı, xalqların istəyi əsasında formalaşıb. Belə bir fikri qətiyyətlə ifadə edə bilərik ki, Azərbaycanda və İranda yaranan mədəniyyətlər həm də bir-birini qarşılıqlı şəkildə zənginləşdirib. Xaqani, Nizami, Nəsimi, Füzuli kimi klassik Azərbaycan şairləri Azərbaycan və fars dillərində böyük əsərlər yaratmışlar. Təbrizdə toxunan xalçalar hələ orta əsrlərdən dünyada şöhrət tapıb. Londonun Viktoriya-Albert muzeyində saxlanan Şeyx Səfi xalçası Təbrizdə toxunub. Bu xalça dövrünün ən iri və əsrarəngiz xalçası adını qazanıb. 1871-1874-cü illərdə M.F.Axundzadənin 6 komediyası fars dilinə tərcümə edilərək İranda yayılıb. Təbriz, Urmiya və Xoy şəhərlərində Ü.Hacıbəylinin məşhur komediyaları tamaşaya qoyulub.



Əslən azərbaycanlı olan Məhəmmədhüseyn Şəhriyar öz əsərlərini Azərbaycan və fars dillərində yazıb. Azərbaycanda onun “Heydərbabaya salam” poeması, “Türkcə divanı” çapdan çıxıb. Yeri gəmişkən, M.Pezeşkian Bakıda prezidentlərin iştirakı ilə baş tutan Azərbaycan-İran biznes forumunda Şəhriyarın şeirini səsləndirib və bu, auditoriya tərəfindən alqışla qarşılanıb.

## Elmi təcrübə mübadilələri, humanitar əlaqələr...

Azərbaycan müstəqillik qazandıqdan sonra iki ölkə arasında mədəni əlaqələr davamlı olaraq genişlənib. 2006-cı il dekabr ayının 21-də AMEA Mərkəzi Elmi Kitabxanası və İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin birgə layihəsi çərçivəsində “Azərbaycan-İran elmi-mədəni əlaqələr zalı” açılıb. Bu layihə iki ölkə arasındakı elmi-mədəni əlaqələrin, elmi təcrübə mübadilələrinin, elmi-maarifləndirmə işlərinin daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi məqsədilə reallaşdırılıb.

Azərbaycan ilə İran arasında mədəni və humanitar sahələrdə tarixən mövcud olmuş sıx münasibətlər informasiya sahəsində də müşahidə edilir. Bu sahədə əməkdaşlıqda AZƏRTAC ilə İRNA arasında tərəfdaşlıq münasibətləri mühüm yer tutur. 2011-ci il aprelin 5-də Bakıda AZƏRTAC ilə İRNA arasında əməkdaşlıq haqqında müqavilə imzalanıb. Müqavilənin imzalanması ilə dost ölkələrimizin bu iki aparıcı media qurumlarının sıx əməkdaşlığı üçün möhkəm hüquqi baza yaranıb. Hər iki ölkənin milli informasiya agentlikləri beynəlxalq media qurumları çərçivəsində də sıx əməkdaşlıq edirlər. Bu qurumlardan biri də Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatıdır (OANA). AZƏRTAC-ın Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatına sədrliyi çərçivəsində 2018-ci ilin sentyabrında Tehranda OANA-nın İcraiyyə Komitəsinin 43-cü iclası keçirilib. İclas çərçivəsində keçirilən görüşlərdə ölkələrimiz arasında əlaqələrin inkişafının informasiya təminatı ilə bağlı məsələlər müzakirə olunub.

Qarşlıqlı mədəniyyət həftələrinin keçirlməsi də yaxşı ənənədir. İndiyədək İranda və Azərbaycanda bir neçə dəfə belə mədəniyyət həftələri baş tutub və böyük maraqla qarşılanıb. Eləcə də Tehranda ayrı-ayrı illərdə baş tutan kitab sərgilərində və digər belə mədəni tədbirlərdə ölkəmiz də yüksək səviyyədə təmsil olunub.





## Əməkdaşlığın inkişafı üçün...

Hər iki dövlət perspektivdə tarixi bağlara əsaslanmaqla mədəni-humanitar sahədə əməkdaşlığı daha da genişləndirmək niyyətindədir. Təsadüfi deyildir ki, M.Pezeşkianın ölkəmizə səfəri çərçivəsində qeyd olunan istiqaməti əhatə edən yeni sənədlər imzalanıb. Bunlar aşağıdakılardır:

-“Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad Nazirliyi arasında 2025-2028-ci illər üzrə Mədəni Mübadilə Proqramı”. Sənədi Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və İranın mədəni irs, turizm və əl işləri sənayesi naziri Seyid Rza Salehi Əmiri mübadilə ediblər.

-”Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad Nazirliyi arasında media əməkdaşlığı haqqında Anlaşma Memorandumu”. Memorandumu Azərbaycanın Baş nazirinin müavini (hökumətlərarası komissiyanın həmsədri) Şahin Mustafayev və İranın yol və şəhərsalma naziri (hökumətlərarası komissiyanın həmsədri) xanım Fərzanə Sadiq mübadilə ediblər.

*Mübariz FEYİZLİ*

# Qlobal Cənubun ümid yeri

## Bakıda Qlobal Cənub QHT Platforması təsis olunub

Azərbaycan daha bir qlobal təşəbbüsə imza atıb. Söhbət ölkəmizin irəli sürdüyü ideya əsasında Qlobal Cənub QHT Platformasının təsis olunmasından gedir. Yeni qlobal vətəndaş cəmiyyəti platforması aprelin 28-29-da Bakıda "Həmrəy fəaliyyət: yeni və ədalətli dünya üçün Qlobal Cənub QHT-lərinin gücləndirilməsi" adlı Forumda təsis edilib.

Yeni QHT platformasının yaradılması Asiya, Afrika, Latın Amerikası, Okeaniya bölgələrini özündə birləşdirən böyük coğrafiyanın - dünya ölkələrinin üçdə iki hissəsini əhatə edən Qlobal Cənubun vətəndaş cəmiyyətinin həyatında əlamətdar hadisədir. Forumda əvvəlcə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Prezident İlham Əliyevin Forum iştirakçılarına müraciətini səsləndirib.

"Qlobal Cənubun güclü səsinə çevrilən Azərbaycan bu platformanın məhz Bakıda təsis olunmasını Qoşulmama Hərəkatına və COP29-a sədrlik dövrlərində fəaliyyətinə verilən yüksək qiymət kimi qəbul edir. İnanıram ki, Qlobal Cənub QHT Platforması xalqlarımızın səsinin eşidilməsi, mövqelərinin dünya ictimaiyyətinə çatdırılması, onların haqlarının qorunması və hüquqlarının təmin edilməsi işinə böyük töhfə verəcəkdir", - deyə müraciətdə vurğulanır.



### Dünyada Azərbaycana və onun Liderinə artan inam

Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşıq üçün yeni reallıqlar yaradan Azərbaycan, həmçinin qlobal miqyasda həmrəyliyin möhkəmlənməsinə davamlı töhfələr verir. Sirr deyil ki, hazırda dünya sürətlə dəyişir. İqlim dəyişmələri, genişlənən müharibələr fonunda qarşıya yeni çağırışlar çıxır. Bir sıra ölkələrin isə bu çağırışları ayrılıqda qarşılamaq imkanları yoxdur. Bu reallığı nəzərə alan Azərbaycan qlobal çağırışlar qarşısında beynəlxalq həmrəyliyin gücləndirlməsi təşəbbüslərindən çıxış edib. Prezident İlham Əliyevin bu təşəbbüsləri isə dünya birliyi tərəfindən təqdirlə qarşılanıb. Buna aid çoxlu nümunələr sadalamaq mümkündür. Dünyanın təxminən 200 ölkəsini cənginə alan yeni növ koronavirus pandemiyası dönəmini xatırlayaq. Vəziyyət çox ağır idi. Təkcə belə bir faktı vurğulamaq yerinə düşər ki, milli səviyyədə pandemiyanın öhdəsindən gəlməkdə aciz qalan 150-dək ölkə kömək üçün beynəlxalq maliyyə qurumlarına müraciət ünvanlamışdı. Həmin dönəmdə Azərbaycan qlobal təhdidə qarşı beynəlxalq həmrəyliyin gücləndirlnməsi təşəbbüsündən çıxış etdi və ilk növbədə özü nümunə göstərdi.

Eyni zamanda, son vaxtlar daha da aktuallaşan iqlim çağırışlarına həssas yanaşması Azərbaycanın qlobal liderliyinə daha bir nümunə sayıla bilər. Ötən ilin noyabr ayında respublikamız BMT-nin iqlim konfransına - COP29-a uğurla ev sahibliyi etdi. COP29-un keçirilməsi üçün Bakının məkan seçilməsi beynəlxalq birliyin ölkəmizə və onun Liderinə artan inamının növbəti təsdiqi idi. Azərbaycan qısa müddətdə yüksək səviyyəli hazırlıqlar görməklə və konfransda bir sıra mühüm nəticələrə, xüsusilə də iqlim maliyyələşməsində, kiçik ada dövlətlərinə dəstək göstərilməsində irəliləyişlərə nail olmaqla bu etimadı yüksək səviyyədə doğrultdu. Müraciətdə bildirildiyi kimi, Azərbaycanın Qlobal Cənub ilə Qlobal Şimal arasında fəal dialoq, o cümlədən qarşılıqlı anlaşma mühiti yaratması, uzun illər ərzində nail olunması mürəkkəb olan konsensus üçün davamlı şəkildə tarazlaşdırıcı mövqe tutması COP29 zamanı "Bakı sıçrayışı"nın əldə edilməsi ilə nəticələnmişdir. Biz Azərbaycanın ev sahibliyi ilə keçirilmiş və 197 ölkədən 80 minə yaxın iştirakçının qatıldığı COP29-da tarixi uğurlara imza atdıq və ölkəmiz haqlı olaraq COP29 irsi ilə fəxr edir

Azərbaycanın Qlobal Cənub QHT Platformasının yaradılması təşəbbüsündən çıxış etməsi də təsadüfi deyil. Qlobal Cənub tarixən ədalətsizliklə üzləşib, bəzi qlobal güclər və beynəlxalq təsisatlar tərəfindən tətbiq olunan ikili yanaşmaların ünvanına çevrilib. Təəssüf doğuran haldır ki, Fransa kimi dövlətlər Qlobal Cənub coğrafiyasında hələ də keçmişin eybəcər qalığı olan müstəmləkəçilik siyasətindən əl çəkmir. Yelisey Sarayı Afrikada, dənizaşırı ərazilərdə aborigen xalqlara qarşı təzyiqlər göstərir, ölkələrin təbii sərvətlərini talayır. Daim ədalət, beynəlxalq hüquq mövqeyindən çıxış edən Azərbaycan bununla barışmır və müstəmləkəçiliyin bütün təzahürlərini qətiyyətlə pisləyir. Ölkəmizin mövqeyinə diqqət çəkən Prezident İlham Əliyev "Azərbaycan hər zaman qarşılıqlı hörmət və birgə inkişaf prinsiplərinə əsaslanan siyasət aparıb. Təəssüflər olsun ki, hazırda Qlobal Cənubu təmsil edən bir sıra ölkələrin hələ də əziyyət çəkdikləri əsas problemlərdən biri də bəzi Qərb ölkələrinin yürütdüyü neokolonializm siyasətidir. Biz müstəmləkəçiliyin bütün formalarını və təzahürlərini qətiyyətlə rədd edir, xalqlara faciələr, köləlik, iztirab gətirən bu cür davranışları qəbuledilməz hesab edirik", - deyə vurğulayıb.

### Qlobal Cənubla Qlobal Şimal arasında dialoq məkanı

Azərbaycanın qlobal liderliyi, Qlobal Cənubla Qlobal Şimal arasında dialoq məkanı kimi çıxış etdiyi Forumdakı çıxışlarda xüsusi olaraq vurğulanıb. Tədbirdə video formatda çıxış edən Kuala Lumpur şəhərinin sabiq meri, BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) üzrə keçmiş icraçı direktoru Maimunah Mohd Sharif Forumun əhəmiyyətindən danışıb. O, Azərbaycana qlobal səhnədə liderlik fəaliyyətinə və Qoşulmama Hərəkatına sədrliyi dövründə verdiyi dəyərli töhfələrə görə təşəkkür edib. Qeyd edib ki, Azərbaycanın bu liderliyi çətin geosiyasi şəraitdə xüsusilə əhəmiyyət daşıyır. Çıxış edən SMACHS Fondunun təsisçisi və baş direktoru, Keniya Prezidentinin qızı Charlene Ruto bildirib ki, Azərbaycan iqlim dəyişmələri ilə mübarizədə və dayanıqlı inkişaf məqsədləri istiqamətində öz səylərini ortaya qoyub. Bildirib ki, biz bir məqsəd ətrafında birləşməli, tərəqqiyə çatmaq üçün məsuliyyətimizin fərqində olmalıyıq. O, çıxışında Azərbaycanın Qlobal Cənubu daim təşviq etdiyini və Qlobal Şimalla dialoqun inkişafına töhfə verdiyini də vurğulayıb.

Deyə bilərik ki, Qlobal Cənub QHT Platformasının yaradılması ideyası COP29-un gözəl miraslarından biridir. Azərbaycan Milli QHT Forumu 2024-cü il noyabrın 15-də COP29 çərçivəsində keçirilən Qoşulmama Hərəkatı regionu QHT-lərin "Cənub-Cənub əməkdaşlığı vasitəsilə iqlim fəaliyyətinin inkişafı: QHT-lərin rolu" adlı beynəlxalq konfransda Qlobal Cənub QHT Platformasının yaradılmasının vaxtının çatdığını elan etmişdi. Bu təşəbbüs beynəlxalq dəstək qazanaraq 140-a yaxın ölkənin QHT-ləri tərəfindən alqışlanmışdı, 1000-dən çox xarici QHT bu təşəbbüsü müdafiə edən birgə bəyanat yaymışdı. Üzvlərinin 84 faizi inkişaf etməkdə olan ölkələrin vətəndaş cəmiyyətlərini təmsil edən COP29 QHT Koalisiyası da bu təşəbbüsün reallaşdırılması üçün çağırış etmişdi. Koalisiya ötən ilin sonunda Qlobal Cənub QHT Platformasının təsisatlandırılması üçün məsələ qaldırmışdı, Azərbaycan Milli QHT Forumundan prosesin aparılması xahiş olunmuşdu. Öz növbəsində Azərbaycan Respublikasının QHT-lərə Dövlət Dəstəyi Agentliyi yeni qlobal təşəbbüsün reallığa çevirməsinə dəstək göstərib. Dünyanın 110-dan çox ölkəsindən aparıcı QHT rəhbərləri onlara ünvanlanan dəvəti qəbul ediblər. Bu, həm Qlobal Cənub, həm də Azərbaycan üçün əsl QHT səfərbərliyidir. Azərbaycan Respublikasının QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyevanın verdiyi məlumata əsasən, Forum 700-dən çox təşkilatı birləşdirir və iqtisadi, siyasi, sosial məsələlərin müzakirəsi üçün ideal bir platforma yaradır. "Bu gün biz yerli QHT-lərin beynəlxalq layihələrdə fəal iştirakını sistemli şəkildə dəstəkləyirik. Birgə layihələrin həyata keçirilməsi üçün çoxsaylı təşəbbüslər uğurla reallaşdırılır. Sevindirici haldır ki, Cənub QHT-lərinin Azərbaycanla əməkdaşlığa böyük maraq göstərdiyini açıq şəkildə görürük", - deyə Aygün Əliyeva vurğulayıb.



### Yeni qlobal QHT platformasından böyük gözləntilər

Tədbirdə çıxış edən Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun İdarə Heyətinin sədri Ramil İskəndərli bildirib ki, Azərbaycanın Qlobal Cənubun səsini dünyaya çatdırmaq uğrunda atdığı addımlar olduqca qürurvericidir. Çünki hazırda hər kəs dünyada baş verən mühüm dəyişikliklərin canlı şahididir. O qeyd edib ki, Bakıda keçirilən bu Forumun əsas məqsədi qlobal arenada səsimizi daha güclü şəkildə eşitdirmək və bizi narahat edən məqamları beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaqdır. "Qlobal Cənub anlayışı yalnız coğrafi bir ifadə deyil. Bu anlayış eyni çətinlikləri, eyni problemləri yaşayan, ortaq mədəniyyəti, dili və dini paylaşan xalqları birləşdirir. Ədalətsizlik və müstəmləkəçiliklə dolu tarixi keçmişə sahib olan ölkələr olaraq, bir araya gəlməli, öz problemlərimizi və haqlı tələblərimizi ictimai platformalarda açıq şəkildə ifadə etməliyik. Bu Forum yalnız müzakirə məkanı deyil, həm də böyük imkanlar platformasıdır. Burada bərabərlik, həmrəylik və ədalət uğrunda birləşən insanları bir araya gətirmişik. Bu, sözün əsl mənasında tarixi məqamdır", - deyə Ramil İskəndərli bildirib.

"Qlobal Cənub QHT Forumu əməkdaşlığın gücləndirilməsinə töhfə verəcək. Biz xalqlarımız arasında əməkdaşlığı artırmalıyıq". Bu fikirləri isə Forumdakı çıxışında Ekvadorun keçmiş xarici işlər naziri və UNITAR-in prezidenti Luis Gallegos ifadə edib.

Cənub-Cənub arasında əməkdaşlığa xüsusilə ehtiyac olduğunu deyən L.Gallegos qeyd edib ki, dünya hər gün yeni çağırışlarla üzləşir və biz yeni pandemiyalara hazır olmalıyıq. Pandemiyalar istənilən dövlətə təsir edir və hər bir insan buna diqqət etməlidir. Pandemiyanın təsirləri nəzərə alınmalı və qarşısını almaq üçün qlobal səviyyədə tədbirlər görülməlidir. Qarşılaşdığımız problemləri dialoq yolu ilə həll etməyə çalışmalıyıq. Biz bütün dünya cəmiyyətlərini çağırmalıyıq ki, məsuliyyətlərini bölüşsünlər və birgə qərarlar qəbul etsinlər.

Luis Gallegos çıxışında vurğulayıb ki, hazırda dünyada 60-dan çox silahlı münaqişə cərəyan edir və bu münaqişələr BMT üzv dövlətlərinin üçdə ikisinə təsir edir. Sülh, ədalət və rifahın təmin olunması cəmiyyətlər üçün mühüm hədəf olmalıdır.

*Mübariz ABDULLAYEV*

# İqtisadi münasibətlərdə yeni səhifə

## Gələcək əməkdaşlıq üçün möhkəm zəmin yaradılır

Prezident Məsud Pezeşkianın ölkəmizə səfəri Azərbaycan-İran iqtisadi münasibətlərində yeni səhifə açmaqla, birgə layihələrin və eləcə də regional əməkdaşlıq platformasının möhkəmlənməsinə dərin zəmin yaradır. İranın dövlət başçısının böyük heyətlə Azərbaycana gəlməsi və bir çox önəmli sənədlərin imzalanması, o cümlədən Prezidentlər səviyyəsində imzalanmış sənəd bir daha tərəflərin xoş niyyətini göstərir.

Dövlət başçılarının apardıqları danışıqlar və fikir mübadiləsi bir çox önəmli məsələlər barədə ortaq baxışları əks etdirməklə, yeni əməkdaşlıq gündəliyinin müəyyən edilməsində mühüm rol oynamış olur. Prezident İlham Əliyevin bəyan etdiyi kimi Azərbaycan-İran strateji münasibətlərini bir daha təsdiqlədik və bütün məsələlərdə səmimi şərait əsnasında razılaşmalar əldə olundu. Əsas məsələ ondan ibarətdir ki, hər iki tərəf əlaqələrin inkişafına çalışır.

### "Şimal-Cənub" və "Trans-Xəzər" quruculuğu



Azərbaycanın dövlət başçısının bəyan etdiyi kimi hazırda çoxtərəfli əməkdaşlıq üçün gözəl şərait var və bu möhkəm sütunlar üzərində iqtisadi- ticarət əlaqələrini inkişaf etdirmək üçün iradə də mövcuddur. Tərəflərin apardıqları müzakirələr iqtisadi səmərəliliyi artırmaq baxımından çox məhsuldar oldu və Azərbaycan-İran dövlətlərarası iqtisadi əlaqələrinin yüksək səviyyəyə qaldırılması üçün konkret prioritetlər müəyyənləşib.

İran və Azərbaycan ikitərəfli iqtisadi təmasların keyfiyyətini artırmaqla bərabər, üçtərəfli əməkdaşlıq layihələrinin genişlənməsində səyləri genişləndirməklə bölgənin ümumi rifahına töhfə vermək niyyətindədir. Təbii ki, burada "Şimal-Cənub" nəqliyyat dəhlizi xüsusi yer tutur və bu layihə iştirakçı olan bütün ölkələrə çox böyük səmərə gətirəcək. Azərbaycan bu nəhəng tranzit arteriyasının qurulması üçün öz ərazisində bütün lazımi infrastruktur layihələrini həyata keçirib və hazırda artan yükləri nəzərə alaraq öz nəqliyyat imkanlarını və infrastrukturlarını daha da genişləndirir. Dəniz limanı, dəmir yolu və avtomobil nəqliyyatının bütün istiqamətləri üzrə yaradılan yeni landşaft gözlənilən böyük yük həcmlərini qəbul etmək və ötürmək üçün möhkəm nəqliyyat arxitekturası deməkdir.

Respublikamız, həmçinin "Şimal-Cənub" nəqliyyat dəhlizinin daşıyıcılıq gücününün artırılması yönündə İran və Rusiyanın nəqliyyat xətlərinin əlaqələndirilməsini təmin etmək məqsədilə birgə modernləşmə işləri aparır. Plana əsasən, "Ulyanovsk- Bakı - Astara" marşrutu "Orta Volqa - Xəzər dənizi - Fars körfəzi" logistika zəncirinə qoşulacaq, eyni zamanda, Azərbaycan və İranın dəmir yolları birləşdiriləcək. Həmçinin, "Şimal-Cənub" marşrutunun "Trans-Xəzər" bölməsinin də bu inteqrasiya blokuna cəlb edilməsi istiqamətində də fəal iş aparılmaqdadır.

Tərəflər, həmçinin Orta-Mərkəzi Asiya-Xəzər tranziti üzrə dəhlizin daşınma rejiminin asanlaşdırılması üçün tariflərinə yenidən baxılmasını, güzəştli ticarət rejiminin yaradılmasını vacib sayır. Eyni zamanda, sərhəd-keçid məntəqələrində nəqliyyat vasitələrinin sərhəddən keçməsi prosesi, gömrük yoxlaması və sənədlərin rəsmiləşdirilməsi qaydasının asanlaşdırılması, daha açıq və hesabatlı tranzit formatının təşkili məqsədilə rəqəmsal platformanın qurulması təklif olunub. Ümumilikdə, məqsəd bu nəqliyyat dəhlizinin gücünün daha da artırılması üçün Xəzər klasteri zonasında bütün tərəflərin dəniz-liman infrastrukturu və konteyner qovşaqlarının, dəmir yolu şəbəkələrinin əlaqələndirilməsi, vahid yükdaşıma sisteminin yaradılmasıdır.




### Birgə Bəyannamə gələcək əməkdaşlıq üçün yol xəritəsidir

İran Prezidenti Prezident Məsud Pezeşkianın bəyan etdiyi kimi ikitərəfli münasibətlərimizdə atılacaq addımlar və mümkün olan bütün sahələrdə əməkdaşlığı genişləndirmək və dərinləşdirmək üçün göstərilən əzmkarlıq hər iki tərəfə böyük faydalar gətirəcək. Gələcək üçün geniş, əhatəli və daha yaxşı strateji planlar mövcuddur ki, bu planın əsas hədəflərinə sənaye, iqtisadiyyat, ticarət, investisiya sahələrində birgə layihələrin dinamizmini artırmaq daxildir. Bunun üçün yolların birləşdirilməsi, maliyyə, ticarət əlaqələrinin yaxşılaşdırılması, "Şimal-Cənub" və "Şərq-Qərb" dəhlizlərində ortaq mənafelərə uyğun prinsipial addımların atılması nəzərdə tutulur. Bütün bunları qarşılıqlı dəstək sayəsində həyata keçirək. İş adamları birgə istehsal proseslərini həyata keçirəcək, birgə sərmayələr yatıraraq layihələr icra edəcəklər.

İki ölkə arasında iqtisadi-ticari dinamikanı gücləndirmək, investisiya əlaqələrini təşviq etmək üçün biznes icmaları arasında daha sıx ünsiyyətin qurulması nəzərdə tutulur. Bu baxımdan iki ölkə arasında imzalanan sənədlər, Prezidentlər tərəfindən imzalanmış Birgə Bəyannamə gələcək əməkdaşlıq üçün yol göstərən konsepsiya və mühüm hesab oluna bilər. Eyni zamanda, "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə İran İslam Respublikasının Yol və Şəhərsalma Nazirliyi arasında 2025-2026-cı illər üçün nəqliyyat sahəsində hərtərəfli əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə İran İslam Respublikasının Yol və Şəhərsalma Nazirliyi arasında "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair 1978-ci il tarixli Beynəlxalq Konvensiya"nın (əlavələrlə) I/10-cu qaydasına əsasən sertifikatların qarşılıqlı tanınmasına dair Anlaşma Memorandumu" bu sahədə yeni fürsətlər və qapılar açır.

### Biznes-forum iqtisadi məram və gələcək niyyətləri əks etdirir

Təbii ki, siyasi əlaqələr güclü olanda biznes dairələri də öz fəaliyyətlərini buna uyğun şəkildə qururlar. Bakıda keçirilən Azərbaycan-İran biznes-forumu isə dövlətlərin iqtisadi məram və gələcək niyyətlərini müəyyən edən möhkəm platforma hesab edilə bilər. Biznes-forumun nəticələrindən irəli gələrək hər iki tərəf növbəti illərdə ticarət, iqtisadi, sərmayə qoyuluşu və digər sahələrdə ciddi irəliləyişlərin olunacağına inanır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi İrandan gələn 120-dən çox iş adamı Azərbaycanda öz həmkarları ilə artıq təmaslar qurublar və biznes-forum nəticəsində real layihələr meydana gələcək. Növbəti illərdə ticarət dövriyyəsinin artırılması üçün konkret addımlar atılacaq və mövcud statistik rəqəmlərin dəfələrlə artmasını gözləmək mümkündür. İki ölkə arasındakı ticarət dövriyyəsi bir milyard dollardan az olmaqla tərəfləri qane etmir.

Eləcə də qarşılıqlı sərmayə qoyuluşu, müştərək müəssisələrin yaradılması və digər buna oxşar təşəbbüslərdə maraqlar üst-üstə düşür və bu istiqamətdə təsirli addımların atılacağı istisna deyil.

İqtisadi əlaqələrin möhkəmlənməsində Azərbaycan-İran hökumətlərarası komissiyasının üzərinə də böyük öhdəliklər düşür və komissiyanın fəaliyyəti yüksək qiymətləndirilə bilər. Çünki komissiyanın həmsədrləri, üzvləri müntəzəm olaraq görüşürlər və hər bir görüşün böyük əhəmiyyəti var, bir çox layihənin praktiki icrasını təmin edib. Ancaq bununla yanaşı, hər iki ölkə yeni bizneslərin açılması, yeni sənaye müəssisələrinin yaradılması üçün imkanları birləşdirmək üçün daha çox işləmək niyyətindədir. Bu istiqamətdə müxtəlif stimulların, təşviqedici alətlərin tətbiqi də istisna olunmur. Vergi sistemi, tariflər, sərmayə iqlimi, biznes sahəsindəki qanunvericilik məsələlərində birgə güzəştlərin edilməsi planlaşdırılır.

### Bölgənin rifahına xidmət edən nəqliyyat dəhlizləri

İran Azərbaycanın işğaldan azad edilmiş ərazilərində təmin edilmiş sağlam və münbit investisiya mühitindən yararlana bilər. Xüsusilə də infrastruktur və energetika layihələrində təmsil olunmaları üçün əla fürsətlər var, ölkəmiz İran şirkətlərini bu layihələrdə iştirak etməyə dəvət edir. Dəmir yolları, avtomobil yolları, kommunikasiya xətləri, elektrik xətlərinin çəkilişində İranın təcrübəli şirkətlərinin köməyindən istifadə mümkündür. Eləcə də bu bölgıədəki biznes layihələrində iranlı iş adamları üçün imkanlar böyükdür. Həmçinin bu bölgədəki "yaşıl enerji" layihələrində dost ölkənin imkanlarından istifadəyə güvənmək olar. Onu da nəzərə alsaq ki, Azərbaycan "yaşıl enerji"də böyük strateji xətt açıb və beş ildən sonra 6500 meqavat gücündə Günəş, külək və su enerji potensialınının böyük hissəsi ixraca yönələcək. Bu prosesdə İran da iştirak edə bilər. Yaxud, Araz dəhlizi layihəsi böyük diqqət cəlb edir. Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə İran ərazisindən birləşdirən layihə. eyni zamanda, böyük tranzit imkanları yaradır. Bu, sadəcə olaraq, bu bölgənin layihəsi deyil. Biz hesab edirik ki, bu, Asiyadan Avropaya uzanan nəqliyyat dəhlizinin bir qolu olmalıdır. Bir tərəfi Aralıq dənizinə, bir tərəfi Fars körfəzinə uzanan yeni nəqliyyat bağlantı dəhlizi olmalıdır və bir çox ölkələr bundan fayda götürəcək. Ona görə də, bu layihənin ərsəyə gəlməsində əsas rol yenə də Azərbaycan və İranın üzərinə düşür. Əgər hər şey plan üzrə gedərsə bu ilin sonuna qədər avtomobil körpüsü istismara verilə bilər. Eləcə də dəmir yolu körpüsünün çəkilişi də əsas müzakirə mövzusudur. Bu dəmir yolu gələn il İran sərhədinə, Zəngilan-Ağbənd istiqamətinə çatdıralacaq və İran ərazisində dəmir yolu inşası da nəzərdə tutularsa, o zaman bu da beynəlxalq nəqliyyat dəhlizi yaranmış olacaq.

*E.CƏFƏRLİ*

# “Elə bilirəm, oğlum hələ də orada işləyir”...

**... “Oğlum 10 ay “Araz” marketdə mühafizəçi işləyib. Hələ də onun maaşı hər ay yüklənir. Elə bilirəm, oğlum hələ də orada işləyir”. Bu, Zəfər savaşında şəhid olmuş igidimiz Səid Bayramovun anasının qəlbindən hopan səmimiyyətinin etirafıdır, bir Ananın minnətdarlığıdır...**

**Bu, həm də Azərbaycanın şəhid övladına, ailəsinə şəbəkə ticarəti ailəsinin layiqli üzvlərindən biri olan “Araz” marketin tükənməz sosial baxışının, məsuliyyətinin nümunəsidir.**

**Eyni sosial mərhəməti “Araz” supermarketlər şəbəkəsinin digər aksiyalarında da müşahidə etmək olar, xüsusilə də Dövlət Məşğulluq Agentliyi ilə birgə icra olunan layihələrdə bunun şahidiyik. 27 Sentyabr Anım Günü və müqəddəs Ramazan bayramı ərəfəsində ölkəmizin ərazi bütövlüyünün müdafiəsi uğrunda şəhid olmuş qəhrəmanların ailə üzvlərinə diqqət və qayğı isə sosial məsuliyyətin nişanəsi kimi ənənəyə çevrilib.**

**Əslində, bu, təkcə sosial borc, mənəvi dəstək deyil, eyni zamanda, Azərbaycan sahibkarının öz işçisinə olan xüsusi diqqətidir, əməyinə verdiyi yüksək dəyərdir.**




## Biznes üçün geniş meydan

Şəbəkə marketlərinin qeyri-neft iqtisadiyyatının inkişafında, büdcə yığımlarının və vergi daxilolmalarının artmasında, məşğulluğun təmin olunmasında, əhalinin dayanıqlı gəlir əldə etməsində önəmli rola malikdir. Beynəlxalq Əmək Təşkilatının məlumatına əsasən, inkişaf etməkdə olan bazarlarda iş yerlərinin təxminən hər 10-dan 4-ü ticarət şəbəkələrinin payına düşür. Bu, həmin sahənin iqtisadi sektor üçün hansı əhəmiyyət daşıdığını aydın şəkildə təsəvvür etdirir.

İnkişaf etmiş ölkələrdə şəbəkə marketlərin pərakəndə bazarda payı təxminən 80 faiz təşkil edir. Ölkəmizdə pərakəndə ticarət dövriyyəsinin 38-39 faizi şəbəkə marketlərin payına düşür və dünya göstəricisindən 2 dəfə geri qalır. Bunun başlıca səbəbi Azərbaycanda biznes cəmiyyətinin, şəbəkə ticarəti landşaftının yeni qurulmasıdır. Nəzərə alsaq ki, ölkəmizdə azad sahibkarlığın inkişafı ötən əsrin sonlarından formalaşıb və şəbəkə ticarəti də bu sütunlar üzərində təxminən 20 il əvvəl inkişaf etməyə başlayıb, bu halda mövcud göstərici olduqca qənaətbəxş hesab edilməlidir.

Son iki onillikdə qeydə alınan bazar tədqiqləri də bu sahənin kifayət qədər ürəkaçan olmasına dəlalət edir. Belə ki, şəbəkə marketləri əsasən 2000-ci ilin əvvələrində “oturuşaraq” ölkə iqtisadiyyatının ayrılmaz tərkib hissəsinə çevrilməklə, yerli təchizat və tədarük zəncirini formalaşdırıb.

2024-cü ildə ölkəmizdə 126,3 milyard manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunub, yaradılmış əlavə dəyərin 10,7 faizi ticarətin payına düşüb. Bu, dəyər etibarilə 13 milyard manatdan çox məhsul deməkdir. Bu rəqəm ticarət sektorunda əldə edilən gəlirlərin formalaşmasında özəl sektor, şəbəkə ticarəti də daxil olmaqla, bu fəaliyyət sahəsi ilə məşğul olanların payının artdığını göstərir.

Ticarət ölkənin pul dövriyyəsi və kredit-maliyyə sistemi ilə də bilavasitə bağlıdır. Dövriyyədəki pulların miqdarı, dövriyyə sürəti əmtəə kütləsinin həcmindən, qiymətlərin səviyyəsindən və malların satış sürətindən asılı olaraq dəyişir. Əhali pərakəndə ticarət şəbəkəsindən istehlak mallarının əldə olunmasına öz gəlirlərinin böyük bir hissəsini xərcləyir, həmin vəsaitlər isə ticarət mədaxili şəklində banklarda cəmləşir. Nəticədə ticarət dövlətin maliyyə sabitliyinin əsaslarını formalaşdırır. Azərbaycanda ötən il pərakəndə satış dövriyyəsi 62,2 milyard manat olmaqla real ifadədə 3,9 faiz artıb və faktiki olaraq ümumdünya inkişaf tempi ilə ayaqlaşdığını nümayiş etdirir.

Bu statistik göstəricilər iqtisadi inkişafın təmin olunması, iş yerlərinin yaradılması, işsizliyin səviyyəsinin azaldılmasında şəbəkə ticarətinin əməktutumlu geniş biznes meydanı olduğunu təsdiqləyir.




## İnsanlar üçün iş yeri, doğma ünvan

Prezident İlham Əliyev 2003-cü ildə ali dövlət postuna seçildikdən sonra fəaliyyət manifestini elan edərkən əsas ümdə prinsiplərdən biri kimi ölkədə iş yerlərinin yaradılmasını önə çəkmişdi. Bu məqsədlə dərhal konkret dövlət konsepti müəyyənləşdi -“Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı” hazırlanaraq icrasına start verildi. 2004-cü ildə əsası qoyulan bu strategiya davamlı olaraq yeni müəssisələrin və iş yerlərinin yaradılmasını təşviq etdi. Bu prosesin ayrılmaz tərkib hissəsinə çevrilən şəbəkə ticarəti dövlətin strateji məqsədə çatmasında birgə addımladı. Həmin dövrdə yeni fəaliyyətə başlamış “Bazarstore”, “Neptun”, “Bolmart” bu prosesin iştirakçısına çevrildi. İş yerləri ilə bağlı dövlətin növbəti proqramlarına qoşulan “Arazmarket”, “Bravo”, Rahat Market”, Grandmart”, “Spar” və digərləri ilbəil böyüyərək öz infrastrukturunu və filiallarının sayını artırmaqla davamlı olaraq minlərlə insanın üzünə iş yeri qapılarını açdı.

Hazırda ölkə üzrə market zəncirində “Oba” marketin 1400-dən, “Al market”in 900-dən, “Araz” Supermarketin 400-dən çox filialı yer alır. “Bravo” 200-ə yaxın, “Rahat” Market və “Bazar Store” 100-dən çox, “Tam Store” 50-yə yaxın, “Bolmart” təxminən 45, “Grandmart” və “Neptun” 30-dan artıq filiala, “Mega Store” isə 25-ə yaxın filiala malikdir. Bura digər 10-larla ortastatuslu market şəbəkəsini də əlavə etsək, ölkə üzrə şəbəkə marketləri coğrafiyasının sayı 5 mini ötmüş olur.

Şəbəkə ticarətinin say artımı yeni işçi qüvvəsinin də meydana çıxmasını şərtləndirib. Məsələn, təkcə “Araz” supermarketlər şəbəkəsi son 13 ildə işçi auditoriyasını artıraraq 11000-dən artıq əməkdaşın məşğulluğunu təmin edib. Yaxud, “Al Market” mağazalarında 5000-ə yaxın, “Bravo”da 4000-ə yaxın, “Bazarstore” və “Oba Market”də 3 mindən çox, “Rahat” Market, “Tam Store” “Bolmart” və “Neptun”da 2000-dən artıq, “Mega Store” və “Grandmart” supermarketlər şəbəkəsində 1500-dən çox işçi çalışır. Digər ortahəcmli market şəbəkələrini də bura əlavə etsək, onların iş yerləri portfelində sayı 100 mindən artıqdır.




## Yüz ən yaxşı vergi ödəyicisi ailəsində...

2003-2024-cü illərdə Azərbaycanda hüquqi şəxslər tərəfindən yeni yaradılmış iş yerlərinin sayı 1 milyon 50 minə bərabər olub. Yeni iş yerlərinin tərkibində ticarət, nəqliyyat vasitələrinin təmiri üzrə say 160 mindən artıqdır. Məlumdur ki, supermarketlər çoxsaylı tədarükçülərlə sıx əməkdaşlıq edərək kənd təsərüfatı, emal və yeyinti sənayesi, nəqliyyat-logistika şirkətlərinin də bilavasitə işlə təminatında mühüm rol oynayır. Nəqliyyat vasitələri ilə daşınan yüklərin üçdə bir hissəsindən çoxu ticarətin payına düşür. Bütün bunlar ticarət şəbəkələrinin qarşılıqlı fəaliyyət sayəsində digər sektorlarda da əlavə olaraq minlərlə işsiz vətəndaşın məşğulluğunda dəstəkləyici rol oynadığnı göstərir. Bu baxımdan şəbəkə ticarəti və onunla əlaqəli olan sahələrdə yaradılan yeni iş yerlərinin sayı son 20 ildə hüquqi şəxslər tərəfindən yaradılmış cəmi iş yerlərində 15 faiz təşkil edir. Ölkə üzrə (2 milyon) yaradılmış cəmi yeni iş yerləri portfelində isə 8 faiz paya malikdir. Əgər bura marketlərlə birgə tədarük platformasında yer alan kənd təsərrüfatı və emal sənayesini də əlavə etsək, say ən azı 70 min və ya 4 faiz artmış olar.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci il yanvarın 1-i vəziyyətinə ölkəmizdə iqtisadi fəal əhalinin sayı 5 milyon 312 min nəfər olub. 2003-cü ildə bu rəqəm 4 milyon 373,5 min nəfər idi, yəni 21 ildə işçi qüvvəsinin sayı 940 min nəfər artıb. Ticarət sektorunun payı iqtisadi fəal əhalinin sayında daha çox yüksəlib. Əgər 2004-cü ildə bu rəqəm 550 min nəfərə yaxın idisə, 2024-cü ildə ticarətdə say 1 milyon nəfərə çatıb. Bu o deməkdir ki, iqtisadi fəal əhalinin təxminən 18,8 faizi (950 min nəfərə yaxın) ticarət sektorunu təmsil etməkdədir. Həmin işçilərin təxminən 15 faizi hüquqi şəxslərə məxsus ticarətdə, yəni şəbəkə marketlərində cəmləşir. Bu statistika bir daha ölkəmizdə iqtisadiyyatda əməktutumlu sahə kimi şəbəkə marketlərinin rolunu və yeni iş yerlərinin yaradılmasında böyük bir zəncir olmasını əks etdirir. Eyni zamanda, məşğulluğun təmin edilməsində ticarət (nəqliyyat vasitələrinin təmiri də daxil olmaqla) ikinci yerdə dayandığını təsdiqləyir.

Pərakəndə ticarət sektoru ölkə iqtisadiyyatının əsas dayaqlarından biri kimi büdcə-vergi daxilolmalarında da əhəmiyyətli paya malikdir. Hazırda qeyri-neft sektorunda böyük vergi ödəyicisi kimi şəbəkə marketlərinin portfel payı 200 milyon manatdan çoxdur. Dövlət Vergi Xidmətinin açıqladığı 2024-cü ildə ən çox vergi ödəyən 100 şirkətin və sahibkarlıq subyektinin siyahısında “Araz” supermarketlər şəbəkəsi tərəfindən 36,7 milyon manat, “Oba Market” MMC tərəfindən 23,5 milyon manat, “Veysəloğlu” MMC tərəfindən 15,5 milyon manat, “Al Market” MMC tərəfindən 23,2 milyon manat vergi ödəndiyi əks olunub.

Bu sektorun aparıcı şirkətlərindən biri olan “Azərbaycan Supermarket” MMC (“Bravo”) ötən il 20,8 milyon manat, “Bazarstore”MMC ötən il 14,1 milyon manat, “Grandmart”MMC 13,6 milyon manat vergi ödəyib. Ticarət sektorunda yer alan “Azza” QSC isə 12 milyon, “Sadaf Trade”MMC isə dövlət büdcəsinə 17,7 milyon manat vergi ödənişini təmin edib.

Onu da nəzərə almaq lazımdır ki, marketlər təkcə mənfəət vergisi ödəmir, işçilərin əməkhaqqından gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna, İcbari Tibbi Sığorta Fonduna, İşsizlikdən Sığorta Fonduna ödənilən pulların tərkibində ticarət sektorunun payı təxminən ən azı 20 faiz təşkil edir.

## Qarabağda açılan marketlər-Səid Bayramovun əmanəti...

Supermarketlər şəbəkəsi, eyni zamanda, mikro və kiçik sahibkarların istehsal etdiyi yerli məhsulların bazara çıxışının asanlaşmasına, tanıdılması və satışına daim dəstək göstərir. Bu da şəbəkə ticarətinin yerli istehsalı təşviq etdiyini, müxtəlif dəstək alətləri ilə aktiv stimullaşdırıcı rol oynadığını göstərir. Həmçinin marketlər ailəsi ilə əməkdaşlıq mikro və kiçik biznesin fəaliyyətinin genişləndirməklə bazarda rəqabət mühitini də artırır. Nəticədə münasib qiymət zənbili yaranır.

... Azərbaycan tarixi Zəfərin yeni qürurverici səhifəsi olan Böyük Qayıdışı dayanmadan sürətlə həyata keçirir, Qarabağ və Şərqi-Zəngəzurda yaradılan zəruri infrasrtrukturlar, salınan şəhər və qəsəbələr, kəndlərlə yanaşı, supermarketlər şəbəkəsi də yaradılır, sayı artır. Marketlər öz doğma evlərinə qayıdan insanların işsizlik probleminin həllində dəstək olur. 2024-cü ildə işğaldan azad edilmiş rayonlarda 2 min 575 yeni iş yeri yaradılıb ki, onların əhəmiyyətli hissəsi ticarət sektorunun payına düşür. Burada isə sözsüz ki, Laçın, Xankəndi, Şuşa və Kəlbəcərdə marketlər yaradan “Araz” marketlər şəbəkəsinin, “Bazarstore”un, “Al Market”in və “OBA Market”in payı xüsusi əhəmiyyət kəsb edir.

... Yeni qurulan supermarketlər həm də dizaynı, estetik görkəmi ilə Qarabağa yaraşıq verir, burada həyat quranlar üçün sanki bir ümid işığı bəxş edır. Bu işığı mühafizə etmək burada çalışan hər kəsin mənəvi borcudur. Çünki bura bizə Zəfəri qazandıran şəhidimiz - “Araz” marketi illərlə mühafizə etmiş və “hələ də orada işləyən” Səid Bayramovun əmanətidir.

**_ELBRUS CƏFƏRLİ_**

*Yazı “Veysəloğlu” Şirkətlər Qrupunun, Azərbaycan Mətbuat Şurasının və Ticarət Şəbəkələrinin İnkişafı İctimai Birliyinin “Orta və kiçik biznesin inkişafında pərakəndə sektorun rolu” mövzusundakı birgə müsabiqəsinə təqdim olunur”.*

# Böyük Qayıdışın iki ünvanı!

## 54 ailə yola salındı...

Azad edilmiş torpaqlarımıza qayıdış ən yüksək səviyyədə davam etdirilir. Bu gün keçmiş məcburi köçkünlər doğma torpaqlarına köçməklə əldə olunan qələbənin qürurunu yaşayırlar. Demək olar ki, intensiv şəkildə azad edilmiş torpaqlara köç karvanı yola salınır. Ötən dövrlərdə reallaşdırılan layihələr isə onu deməyə əsas verir ki, respublikamız işğaldan azad olunmuş ərazilərin bərpası, soydaşlarımızın məskunlaşdırılması ilə bağlı qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlməkdədir.

## Daha iki ünvan...



Ötən gün növbəti köç karvanı Xocalı rayonunun Ballıca və Ağdam rayonunun Sarıcalı kəndlərinə yola salınıb. Sarıcalı kəndinə bu mərhələdə 39 ailə - 169 nəfər, Xocalı rayonunun Ballıca kəndinə isə 15 ailə - 68 nəfər köçürülüb.

## Vacib işlər görülür...

30 illik işğal dövründə tamamilə dağıdılan Ağdam bu gün yenidən qurulur. Bərpa-quruculuq işlərində xüsusi diqqət göstərilən məsələlərdən biri isə infrastruktur layihələrinin icrasıdır. Bunu Ağdam şəhərinin, rayonun kəndlərinin timsalında da aydın görmək mümkündür. Xatırladaq ki, Sarıcalı kəndinin təməli 2022-ci ildə Prezident İlham Əliyev tərəfindən qoyulub. Sarıcalı kəndi 1873 nəfər əhali üçün planlaşdırılıb. Ümumilikdə, kənddə 2 mərhələ üzrə 425 fərdi evin inşası nəzərdə tutulub. Burada əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, təhsil, iqtisadi, sosial və məişət təyinatlı müxtəlif müəssisələr, klub-icma və mədəniyyət mərkəzləri tikilib. Burada sosial məsələlər də öz həllini tapıb. Kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub.




## Milli kimliyimizin parçası...

Bu gün Qarabağın azad olunması ilə Ballıca kəndinə də yeni həyat gəlib. Burada artıq keçmişin izlərini bərpa etmək, təbiətin və mədəniyyətin harmoniyasını yenidən qurmaq mümkündür. Ballıca həm də tariximizin, milli kimliyimizin bir parçasıdır.

Ballıca kəndinin yerləşdiyi ərazi Qarabağ silsiləsinin təbii mənzərələri ilə əhatə olunub. Ballıca çayının kənarı yaz fəslində çiçəklənən dağ bitkiləri ilə bəzənir, ətrafa xoş təravət yayılır. Kənd strateji baxımdan əhəmiyyətli mövqedə yerləşir. Dağlıq ərazi müdafiə baxımından əlverişli olduğundan Ballıca keçmişdə bölgənin mühüm nöqtələrindən biri idi.

19-cu əsrin əvvəllərinə qədər Ballıca Gəncə qəzasının Əhmədbəyli kəndinin əhalisi üçün yaylaq yeri olub. Əsrlər boyu burada azərbaycanlı əhali öz ənənəvi yaylaq həyatını qurub, ərazinin havasından, bərəkətli torpaqlarından faydalanıb. Qarabağın digər bölgələri kimi, Ballıca da zəngin təbiəti ilə insanları özünə cəlb etmişdi.




Ballıca kəndi 1992-ci ildən 2020-ci ilə qədər Ermənistan silahlı qüvvələrinin nəzarəti altında olub. İkinci Qarabağ müharibəsindən sonra imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən kənd Rusiya sülhməramlılarının nəzarətinə keçib. Lakin 2023-cü il 19-20 sentyabr tarixlərində həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində tamamilə azad edilib.

**_Yeganə BAYRAMOVA_**

# Fransa yeni problemlə üz-üzə

## Əmək bazarında ixtisarlar sosial partlayış yarada bilər

Emmanuel Makronun iki prezidentliyi dönəmində həyata keçirlən səriştəsiz və avantürist siyasət Fransanı tarixi ənənələrindən uzaqlaşdırmaqla sözün əsl mənasında uğursuzluq zolağına salıb, antidemokratik imic qazandırıb. Ötən il hazırkı iqtidar komandasını təmsil edən mərkəzçi adlandırılan blokun Avropa Parlamentinə və Milli Assambleyaya keçirilən seçkilərdə acınacaqlı məğlubiyyətə uğraması ilə Yelisey Sarayı ciddi siyasi böhranla üz-üzə qalmışdı. Eyni zamanda, uzun müddət ərzində stabil hökumətin formalaşdırılması mümkün olmamışdı.

Hazırda ökədə böhran meyilləri davam edir. Bu gün Fransa əsarətdə saxladığı keçmiş müstəmləkə ölkələrindən biabırçı şəkildə qovulur. Avropa İttifaqı (Aİ) məkanında rəsmi Parisə inam hər ötən gün azalır. Makron ölkəsinin qlobal güc iddialarını ortaya qoymağa çalışsa da, buna nail ola bilmir. Son vaxtlarda rəsmi Parisin bir sıra regional və qlobal proseslərdən uzaqlaşdırlması ölkənin kədərli reallığı kimi qəbul olunur. Bütün bunlara istinad edən bir sıra siyasətçilər isə Makronu böyük güclərin "nökəri" kimi səciyyələndirməkdən çəkinmirlər və onun siyasətdən getməsinə çağırışlar edirlər. Makronun başının digər bir bəlası isə ölkədə sosial-iqtisadi vəziyyətin getdikcə ağırlaşması və dözülməz hala gəlməsidir.

### Vəsaitlərə qənaət naminə iş yerlərinin kütləvi ixtisarı



İki-üç milyard avroya qənaət etmək üçün yüz minlərlə iş yeri ləğv olunmalıdır - Fransanın dövlət hesablama naziri Ameli dö Monşalən bu haqda açıqlama verib və ölkədəki dövlət sektorunda fəaliyyət göstərən qurumların üçdəbirinin birləşdiriləcəyini və ya ləğv ediləcəyini bildirib. Fransalı nazir dövlət sektorunda ixtisar olunacaq və ya ləğv ediləcək işlər, qurumlar haqqında mayın ortasında məlumat verəcək. Nazirin açıqlamasından sonra Fransa Demokratik Əmək Konfederasiyası (CFDT) dövlət qulluğu üzrə həmkarlar ittifaqı dövlət qulluğu sahəsində 180 min insanın gələcəyi üçün narahat olduğunu vurğulayıb. Ümumi Əmək Konfederasiyası (CGT) həmkarlar ittifaqının prezidenti də bu açıqlamadan sonra narahat olduğunu söyləyib və bu qərarın məsləhətləşmədən qəbul edilməsinə təəssüflənib.

Göründüyü kimi, Fransa yeni sosial partlayış ərəfəsindədir. Fransa İctimai Rəyi Araşdırma İnstitutunun keçirdiyi sorğuya əsasən, əhalinin dörddə biri gündəlik xərclərini qarşılamaqda davamlı çətinlik çəkir. Agentliyin yazdığına görə, insanlar tez-tez gigiyenik vasitələrlə qida məhsulları arasında seçim etməyə məcbur qalırlar. Qeyd olunur ki, vətəndaşların demək olar ki, yarısı (47 faiz) şəxsi gigiyena vasitələrinə qənaət edir. Onların 22 faizi isə tualet kağızından istifadəni azaldıb. Bundan əlavə, fransız qadınların 33 faizi kosmetikadan daha az istifadə etməyə başlayıb. Əlavə olaraq, uşaq bezləri kimi əsas ehtiyac mallarına qənaət edənlər əsasən azgəlirli gənc ailələrdir. Şübhəsiz ki, əmək bazarında gözlənilən kütləvi ixtisarlar ölkədə əhalinin sosial vəziyyətinin daha da ağırlaşması ilə sonuclanacaq.

### Sosial modelin başı üstündən asılan "Damokl qılıncı"




Fransada sosial vəziyyətin ağırlaşması və iş yerlərinin kütləvi ixtisarlarının planlaşdırılması ilk növbədə getdikcə dərinləşən iqtisadi böhranla şərtlənir. Ölkənin dövlət borcunun davamlı olaraq artması əsas təhdidlərdən biridir. Fransa Milli Statistika və İqtisadi Tədqiqatlar İnstitutunun məlumatına görə, ölkənin xarici borcu 3,3 trilyon avronu keçərək ÜDM-in 113,7 faizinə çatıb. Ötən ilin ikinci yarısında Fransanın xarici borcu daha 72 milyard avro artıb. Proqnozlara görə, 2027-ci ilə qədər bu göstərici 3,6 trilyon avroya çata bilər.

Hesablama Palatasının rəsmisi isə qeyd edib ki, Fransa dövləti hər il 60 milyard avro borc ödəyir: "2027-ci ildə isə bu rəqəmin 80 milyard avroya qədər yüksəlməsi ehtimalı tam realdır. Bu, dövlətin təhsil, ədliyyə, təhlükəsizlik sahələrini, həmçinin "yaşıl iqtisadiyyat"a keçid kimi digər istiqamətləri maliyyələşdirmək imkanlarını azaldacaq. Əslində, yeni hökumətin əsas vəzifəsi dövlət borcunu azaltmaq olmalıdır. Bu, təkcə sağçıların, yaxud solçuların deyil, hər kəsin üzərinə düşən ümumi vəzifədir", - deyə Hesablama Palatasından verilən məlumatda bildirilib.

Baş nazir Fransua Bayru da xarici borc öhdəliyinin artmasından narahatlığını ifadə edib. Onun sözlrinə görə, Fransanın bütün tarixi ərzində heç vaxt belə böyük xarici dövlət borcu olmayıb. Fikirlərinə davam edən Baş nazir vurğulayıb: "Ölkəmizin həddən artıq borcu var və bundan hər bir Fransa vətəndaşının xəbəri olmalıdır. İndi bizim vəzifəmiz bu borcu azaltmaqdır. Xarici borc E.Makronun dövründə daha 12 faiz artıb". Baş nazir bunu parlamentin aşağı palatasında çıxışı zamanı bildirib. O, ölkənin xarici borcunu sosial modelin başı üstündən asılan "Damokl qılıncı" adlandırıb.

### Kütləvi etirazlara çağırış

"ArcelorMittal" rəhbərliyi tərəfindən açıqlanan sosial plana cavab olaraq, Fransanın Ümumi Əmək Konfederasiyası Dünkerkdə genişmiqyaslı nümayiş keçirilməsi üçün çağırış edib. Məlumat üçün bildirək ki, "ArcelorMittal" polad istehsalçısının ixtisar planına görə Fransanın şimal və şərqində 600 iş yeri ləğv edilir.

CGT-nin baş katibi Kristel Venyi bildirib ki, "ArcelorMittal" Dünkerkin iqtisadi nəfəsidir. O, obyektlərin acınacaqlı vəziyyətdə olduğunu bildirərək, etirazçıları sahil qəsəbəsinə toplaşmağa çağırıb. CGT-nin nümayəndəsi qeyd edib ki, onlar zavodun yenidən dövlətin nəzarəti altına alınmasını və milliləşdirilməsini tələb edirlər. Həmkarlar İttifaqı işçiləri mayın 1-də ən yüksək səviyyəyə qədər təzyiq göstərmək üçün genişmiqyaslı etiraz nümayişinə çağırıb.

Həmçinin həmkarlar ittifaqlarının digər nümayəndələri zavodun acınacaqlı vəziyyətdə olduğunu, investisiya çatışmazlığı və illərlə texniki xidmət göstərilmədiyini vurğulayıblar. Onlar son bir ildə zavodun mindən çox işçisinin ixtisara düşdüyünü qeyd ediblər.

Həmkarlar İttifaqı zavodun bağlanmasının Fransanın şimalındakı bütün sənayeni çökdürəcəyini və fəlakətli sosial-iqtisadi və siyasi nəticələr yaradacağını vurğulayıb.

Xatırladaq ki, aprelin 23-də "ArcelorMittal" tərəfindən təqdim edilən plan bu zavodun Hindistana köçürülməsini, eləcə də istehsala təsir edən 600-ə yaxın iş yerinin ləğvini nəzərdə tutur.

"1 May tarixi gün olacaq", - deyə "ArcelorMittal"ın həmkarlar ittifaqının baş katibi Qaetan Lekok bütün mütərəqqi qüvvələri hərəkata qoşulmağa çağırıb.

*MÜBARİZ*

# İnkişafımızın düsturu...

## İctimai və dövlət maraqlarının balansı qorunur

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti üzrə hazırlanmışdır**

Ölkəmizdə həyata keçirilən islahatlar kursu fonunda insan hüquqlarının müdafiəsi, vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti, o cümlədən təhsil, səhiyyə, mədəniyyət və innovasiyalar sahəsində xeyli nailiyyətlər əldə olunub. Bir sözlə, bütün sahələrin inkişafı milli maraqlar, xalqın rəyi nəzərə alınmaqla kompleks şəkildə həyata keçirilir. Ölkə rəhbəri rifah halının yüksəldilməsi, sosial sferanın, elmin və innovasiyanın təkmilləşdirilməsi istiqamətində qarşıya aydın məqsədlər qoyub. Bu cür təşəbbüslər respublikanı dünyanın inkişaf etmiş ölkələri sırasına çıxarmaq, milli iqtisadiyyatın beynəlxalq reytinqlərdə mövqeyini möhkəmləndirmək məqsədi daşıyır.

Ölkənin əsas məqsədlərdən biri də güclü vətəndaş cəmiyyətinin formalaşmasını təmin etməkdir. Məhz belə bir vətəndaş cəmiyyəti ictimai və dövlət maraqlarının səmərəli müdafiəsinə zəmanət verə, neqativ amillərin qarşısını ala bilər. Demokratik və hüquqi dövlət quruculuğu prosesinin mühüm tərkib hissəsi olan vətəndaş cəmiyyəti institutları milli birliyin daha da gücləndirilməsi işinə böyük töhfələr verir.

Azərbaycan eyni zamanda regionda sülhə, sabitliyə və iqtisadi rifaha nail olmağa yönəlmiş açıq və praqmatik xarici siyasət yürüdür. Bütün bunlar ictimai və dövlət maraqlarının müdafiəsinə kompleks zəmin yaradır. Vətəndaşların dövlətin və cəmiyyətin inkişaf proseslərində fəal iştirakı uğurla təmin edilir.

**Milli maraqlar uğurla təmin edilib**

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, ölkəmizdə ictimai və dövlət maraqlarının müdafiəsindən danışarkən, köklü modernləşməyə xüsusi diqqət edilməlidir. Eyni zamanda, bu barədə danışarkən demokratikləşmə sahəsində əldə olunan nailiyyətləri qeyd etməmək olmaz: "Bu gün islahatların gedişi barədə əhalinin və dünya ictimaiyyətinin geniş şəkildə məlumatlandırılması və onların həyata keçirilməsinə ictimai nəzarətin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Transformasiyaların səmərəliliyinin açarı vətəndaşların dövlətin və cəmiyyətin inkişaf proseslərində fəal iştirakıdır. Son illər bu unikal mexanizm vasitəsilə müxtəlif istiqamətlər üzrə vətəndaşlardan çoxsaylı müraciət daxil olub və onlar müvafiq qaydada hökumət tərəfindən cavablandırılıb. Bunlar insan hüquq və azadlıqlarına riayət və hörmətə, ümumi təhlükəsizlik təhdidlərinə yeni yanaşmalara, milli qanunvericiliyə beynəlxalq standartların tətbiqinə gətirib çıxarıb. Eyni zamanda, o da mühümdür ki, ölkənin siyasi müstəqilliyinin formalaşması və inkişafı şəraitində obyektiv olaraq milli kimliyin formalaşması da uğurla həyata keçib. Bu zaman milli maraqlar məsələsi də uğurla təmin edilib".




**Dövlətin təməl daşı - milli maraqlar**

Deputatın sözlərinə görə, milli maraqlar hər bir dövlətin fəaliyyətinin təməl daşı hesab olunur: "İstənilən dövlətin siyasətinin əsasında milli maraqlar dayanmalıdır. Siyasi baxışlarından asılı olmayaraq hər bir vətəndaşın da ilk vəzifəsi məhz dövlətin mənafeyini qorumaq, ölkənin maraqlarını müdafiə etməkdən ibarətdir. Bütün siyasi qüvvələrin, vətəndaş cəmiyyətinin, hətta bütün vətəndaşların yeganə amalı ölkəmizin daha yüksək səviyyədə inkişafına dəstək vermək və bu prosesdə fəal iştirak etmək olmalıdır. Siyasi həyat bir-biri ilə əlaqəli maddi formasiyaların, ideoloji və digər siyasi-ictimai institutların, o cümlədən dövlət qurumlarının məcmusunda çoxşaxəli olduğu kimi, siyasi maraqlar da müxtəlifdir. Paralel olaraq həm də xarici siyasətdə eyni halın şahidi olmaq mümkündür - dövlətçiliyin və dövlətlərarası münasibətlərin inkişafında milli maraqlar həmişə əsas olub. Siyasi prosesdə, bir qayda olaraq, milli maraqlar probleminin aktuallaşması özünü göstərir. Müasir tarixi inkişaf dövrünün xüsusiyyəti ondan ibarətdir ki, indi milli maraqlar problemi digər elm sahələrinə nisbətən daha çox siyasətdə öyrənilir və bu, tamamilə düzgündür, formalaşmış təcrübəyə əsaslanaraq cəmiyyətdən problemlərin həllini tələb edir. Azərbaycan bu məsələnin öhdəsindən uğurla gəlib və bu da ölkəyə ictimai maraqları da uğurla təmin etməyə imkan verir".

*Yeganə BAYRAMOVA*

# Mina problemi beynəlxalq ictimaiyyətin diqqətində

## Çin Azərbaycana minatəmizləmə sahəsində dəstəyini davam etdirəcək

Azərbaycan dünyada mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biridir. 30 illik işğal dövründə Ermənistan xeyli sayda hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru da əsas yerlərdən birini tutur. Ermənistanın mina terroru hələ də davam edir. Təkcə aprel ayında işğaldan azad edilmiş ərazilərimizdə bir neçə mina partlaması hadisəsi baş verib. Aprelin 2-də Ağdam rayonunun Çəmənli kəndi ərazisində 1968-ci il təvəllüdlü Ağdam rayon sakini Nurəddin Feyzi oğlu Abbasov, aprelin 6-da Cəbrayıl rayonunun Mehdili kəndi ərazisində ANAMA-nın əməkdaşı 1991-ci il təvəllüdlü Heydər Əli oğlu Xankişiyev, Ağdam rayonunun Qalayçılar kənd sakini, 1983-cü il təvəllüdlü Səbuhi Elman oğlu Məmmədov və iki azyaşlı övladı, aprelin 28-də isə Qazax rayonunun Qızılhacılı kəndində ANAMA-nın əməkdaşı, 1985-ci il təvəllüdlü Elnur Oruc oğlu Paşayev minaya düşərək müxtəlif dərəcəli xəsarət alıblar.

**400 nəfərə yaxın mina qurbanı...**

Bütövlükdə, 2020-ci il müharibəsindən bəri 400 nəfərə yaxın Azərbaycan vətəndaşı Ermənistanın mina terrorunun qurbanı olub. Bu, yalnız fiziki deyil, həm də insanların psixoloji və sosial baxımdan dərindən təsirləndiyi ciddi bir problemdir. İşğal dövründə ərazilərimizə basdırılmış minalar regionda qalıcı sülhün bərqərar olmasına ciddi təhdid yaradır. Bu təhlükənin qarşısının alınması üçün beynəlxalq əməkdaşlıq və yardımlar olduqca vacibdir. Eyni zamanda, Ermənistanın minalarla çirkləndirdiyi ərazilərdəki humanitar vəziyyətin ciddi şəkildə nəzərə alınması və Ermənistanın beynəlxalq hüquq çərçivəsində məsuliyyətə cəlb edilməsi aidiyyəti beynəlxalq qurumlar qarşısında mühüm bir öhdəlik olaraq qalmaqdadır. Minaların məqsədli şəkildə basdırılması insan hüquqlarının ciddi şəkildə pozulmasına, regionda sülhün və təhlükəsizliyin bərpasını çətinləşdirməyə səbəb olur.

**Çinlə Anlaşma Memorandumu əməkdaşlığı gücləndirəcək**

Bütün bunları nəzərə alaraq, beynəlxalq ictimaiyyət minatəmizləmə fəaliyyətlərinin təxirəsalınmazlığını qəbul etməli, Azərbaycanın davam edən minatəmizləmə səylərinə dəstək olmalıdır. Müsbət haldır ki, ölkəmizin dostları bu istiqamətdə öz dəstəyini göstərir. Buna nümunə olaraq, Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində "Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi ilə Çin Xalq Respublikasının Xarici İşlər Nazirliyi arasında humanitar minatəmizləmə sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu"nun imzalanmasını göstərmək olar. Yeri gəlmişkən, Çinin ölkəmizdə yeni təyin olunmuş səfiri Lu Mey də bugünlərdə keçirdiyi brifinqdə söyləyib ki, Çin öz imkanları daxilində Azərbaycana minatəmizləmə və mina qurbanlarına dəstək sahələrində humanitar yardım göstərməyə davam edir.

**Aİ və ATƏT də minatəmizləmə prosesinə töhfə vermək istəyir**




Bundan əlavə, aprelin 25-də Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın ölkəmizə səfəri zamanı da mina problemi diqqət mərkəzində olub. Birgə keçirilən brifinqdə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, 2020-ci ilin noyabrından bu günə qədər təxminən 400 nəfər mina partlayışlarının qurbanı olub. Bu, təkcə bizim üçün deyil, bütövlükdə region üçün ciddi təhlükə mənbəyidir. Nazirin sözlərinə görə, ölkəmiz üçün ən vacib istiqamətlərdən biri, 30 il işğal altında qalmış ərazilərimizin bərpası və yenidən qurulmasıdır. Bu prosesin əsas tərkib hissələrindən biri və ən böyük çətinlik yaradan amil mina problemidir. Bu istiqamətdə Azərbaycan çox böyük resurslar sərf edir. Lakin problemin miqyası o qədər genişdir ki, müharibənin başa çatmasından beş il keçməsinə baxmayaraq, biz hələ uzun illər bu problemlə mübarizə aparmalı olacağıq. "Bu sahədə Avropa İttifaqı ilə əməkdaşlıq mövcuddur. Azərbaycan bu əməkdaşlığın daha da genişlənməsində və Avropa İttifaqı ilə birgə daha böyük layihələrin həyata keçirilməsində maraqlıdır. Ümid edirik ki, gələcək illərdə bu məsələyə xüsusi diqqət yetiriləcək", - deyə Azərbaycanın XİN başçısı vurğulayıb.

Kaya Kallas isə deyib ki, Avropa İttifaqı Azərbaycanda minaların təmizlənməsi prosesinə töhfə verməkdədir və ölkədə münaqişənin izlərinin aradan qaldırılması istiqamətində səylərini davam etdirəcək.

Həmin gün ölkəmizdə səfərdə olan ATƏT-in Baş katibi Feridun Sinirlioğlu da təşkilatın Azərbaycan ərazilərinin minalardan təmizlənməsi sahəsində dəstək göstərməyə hazır olduğunu bəyan edib. Onun sözlərinə görə, ATƏT-in bu istiqamətdə zəngin təcrübəsi mövcuddur.

Bütün bunlarla yanaşı, beynəlxalq ictimaiyyət Ermənistan tərəfindən törədilən hərbi və ekoloji cinayətlərə, humanitar hüquq pozuntularına sərt reaksiya verməli, dəqiq mina xəritələrinin Azərbaycana təqdim edilməsi istiqamətində bu ölkəyə ciddi təzyiqlər göstərməlidir.

*Nardar BAYRAMLI*

# Kanadada parlament seçkiləri keçirildi

## Liberal Partiya növbəti qələbəsini qazandı

Kanadanın hakim Liberal Partiyası ölkədə keçirilən parlament seçkilərində qələbə qazanıb. Aprelin 28-də keçirilən seçkinin ilkin nəticələri barədə Kanadada səsverməyə həsr olunmuş rəsmi internet saytında məlumat yayılıb. Məlumata görə, Baş nazir Mark Karninin rəhbərlik etdiyi liberallar 164 seçki dairəsi üzrə qələbə qazanıb. Səslər tam sayılmadığı üçün rəqəmlərin dəyişə biləcəyi gözlənilir - Kanada KİV-i qələbə qazanan partiyanın 167-dən artıq səs toplayacağına inanır. İcmalar Palatasında ikinci yeri isə 2015-ci ildən müxalifətdə olan sağ mərkəzçi Mühafizəkarlar Partiyası əldə edib - onlar son məlumata görə, parlamentdə 146 yer əldə ediblər. Siyahıda üçüncü yeri isə Kvebekin müstəqilliyini müdafiə edən "Kvebek Bloku" qazanıb - onlar parlamentdə 23 yer əldə edə biliblər.

Xatırladaq ki, Kanadanın qanunverici orqanı olan İcmalar Palatasında 343 deputat yeri var - parlament çoxluğunu əldə etmək üçün isə bu yerlərdən ən azı 172-si qazanılmalıdır. "Canadian Press" xəbər agentliyinin məlumatına görə, parlamentdə koalisiyanın qurulması da istisna olunmur. Səsvermələrin son nəticəsi isə ölkənin ən qərb əyaləti olan Britaniya Kolumbiyasında nəticələr açıqlanana qədər davam edə bilər.

### Proqnozlar özünü doğrultmadı...

Qeyd edək ki, seçkilər cəmisi bir neçə ay öncə proqnozlaşdırılan nəticələr üzrə etməyib - "Reuters" xəbər verir ki, bir neçə ay əvvəl kanadalılar sorğularda Piyer Poiliyevrenin rəhbərlik etdiyi Mühafizəkarlar Partiyasına üstünlük verirdilər. Bu, Kanadanın keçmiş baş naziri və Liberal Partiyasının lideri Castin Trüdonun apardığı siyasətə etiraz idi - son illərdə ölkədəki qiymət artımı, mənzil böhranı və immiqrasiya problemləri səbəbindən hakim partiya hətta tərəfdarları arasında populyarlığını itirmişdi. Trüdonun 2025-ci ilin yanvarında istefasını elan etməsi və onu liberalların namizədi Mark Karninin əvəz etməsi isə situasiyanı dəyişdi. Məhz Karninin son çıxışları, apardığı siyasi kurs Kanada İcmalar Palatasına seçkilərdə Liberal Partiyanın yenidən önə çıxmasını təmin etdi.



### Trampın Karniyə "köməyi"

Kanadalı seçicilərin yenidən liberallara üstünlük verməsində müəyyən mənada ABŞ Prezidenti Donald Trampın da "xidməti" var. Belə ki, ABŞ prezidenti hələ səlahiyyətlərinin icrasına başlamazdan öncə Kanadanı "51-ci ştat" adlandırmışdı. Eyni zamanda, Kanada Trampın "ticarət müharibəsi"nə başladığı ilk ölkələrdən biri idi. Bu fonda Karninin "anti Tramp" kursu seçicilərin dəstəyinin qazanılmasında əsaslı rola malik oldu. O, Vaşinqtonun iqtisadi siyasətinə və ilhaq təhlükəsinə qarşı möhkəm dayanacağına söz verdi. Eyni zamanda, Karni ölkənin ABŞ-dan asılılığını azaltmaq üçün Kanada büdcəsindən milyardlarla dollar xərcləmənin zəruriliyi barədə xəbərdarlıq etdi.



Artıq qələbə münasibətilə təbriklər edilir - Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen və Böyük Britaniyanın baş naziri Key Starmer Mark Karnini ilk təbrik edənlərdən olublar. Karni qələbə nitqində Kanadanın indi tarixin "dönüş nöqtəsində" olduğunu söyləyib. "Prezident Tramp bizi sındırmağa çalışır ki, Amerika bizi ələ keçirsin. Bu, heç vaxt, heç vaxt baş verməyəcək", - liberal lider vurğulayıb. Ottavada tərəfdarlarına II Dünya müharibəsindən bəri Kanada ilə ABŞ arasında mövcud olan qarşılıqlı faydalı münasibətlər dövrünün başa çatdığını deyən Karni ABŞ-ın xəyanətinin dərslərini heç vaxt unutmamalı olduqlarını önə çəkib. Bildirib ki, Kanada

### "Baş bankir"likdən baş nazirliyə...

öz vətəndaşlarının rifahını Birləşmiş Ştatlar olmadan da təmin edə bilər.

Mark Karni deyib ki, o, yaxın günlərdə "iki suveren və müstəqil dövlətin" gələcəyini müzakirə etmək üçün Donald Trampla danışmağı planlaşdırır.

Qeyd edək ki, 60 yaşlı Mark Karni əvvəllər heç vaxt seçkili vəzifə tutmayıb. Bu ilin mart ayında isə baş nazir postunda Castin Trüdonu əvəz edib. O, investisiya üzrə fəaliyyət göstərir. İqtisadi böhran illərində Kanadanın mərkəzi bankına, Brexit dövründə isə Böyük Britaniyanın mərkəzi bankına rəhbərlik edib. Karni baş nazir kimi and içməyəcək - o, həmin vəzifəni tutduğu üçün buna ehtiyac qalmayacaq. Karninin nazirlər kabinetinə yüngül dəyişiklik edəcəyi gözlənilir. Çünki Liberal Partiya parlamentdə lazım olan səs çoxluğunu qazana bilməyib. Çünki Mühafizəkarlar da parlamentdəki yerlərinin sayını çoxaldıb - əvvəlki parlamentdə onların sayı 120 idi.

*SADİQ*

# Ordular hazır vəziyyətə gətirildi

## Pakistan ilə Hindistan arasındakı gərginlik artmaqdadır

Hindistan ilə Pakistan arasındakı artan gərginlik səngimir. Qeyd edək ki, aprelin 22-də baş verən hadisələrdən sonra İslamabad və Yeni Dehli arasında münasibətlər yenidən gərginləşib. Hazırkı fonda hər iki tərəf sərhəd bölgəsinə xeyli canlı qüvvə və hərbi texnika cəmləşdirib. Nüvə və kontinental ballistik silahlara malik olan hər iki ölkə ordusunu hazırlıq vəziyyətinə gətirib. "Economic Times" qəzetinin məlumatına görə, Hindistan öz hava məkanını və limanlarını Pakistan üçün bağlamağa hazırlaşır. Hər iki ölkənin hərbi hava qüvvələrinə məxsus döyüş təyyarələri həm quruda, həm də dəniz sularında sərhəd xətlərinə yaxın ərazilərdə təlimlər həyata keçirirlər. Pakistanın müdafiə naziri Xavadja Məhəmməd Asif yerli mətbuata açıqlamasında bölgədə gərginliyin təhlükəli həddə çatdığını bildirib. Nazir qeyd edib ki, Hindistan və Pakistan arasında müharibə ehtimalı son dərəcə artıb və qarşıdakı iki-dörd gün ərzində intensiv hərbi toqquşmalar baş verə bilər. Bu səbəbdən Pakistanın hərbi rəhbərliyi cənubundakı əsas liman şəhəri olan Kəraçidən Hindistanla sərhəd bölgəsinə doğru genişmiqyaslı hərbi texnika daşınmasına başlayıb. Pakistan KİV-lərinin məlumatlarında qeyd olunur ki, kolonların tərkibində tanklar, zirehli maşınlar və ağır artilleriya sistemləri yer alır.

### Kənar vasitəçilər müdaxilə edə bilər...



Bəzi beynəlxalq ekspertlər Pakistan və Hindistan arasında lokal xarakterli hərbi toqquşmaların baş verəbiləcəyi ehtimalını irəli sürsə də, regionda genişmiqyaslı müharibənin baş verməsini istisna edirlər. Buna ən böyük səbəb kimi isə Hindistan və Pakistanın nüvə və kontinental ballistik silahlara malik olmasını, hər iki ölkənin bir-birinin hərbi imkanları və müdafiə strategiyaları haqqında kifayət qədər məlumata malik olmalarını göstərirlər. Onlar iddia edirlər ki, İslamabad və Yeni Dehli risklərin fərqindədir və buna görə də son dərəcə ehtiyatlı davranırlar. Hər iki tərəfin bölgədə gərginliyin qarşısının alınması və vəziyyətin sabitləşməsi üçün diplomatik kanalları da var - onlardan istifadə edilməsi və ya kənar vasitəçilərin müdaxiləsi də gözlənilənlər arasındadır.



### Növbəti müharibənin qarşısını almaq üçün...

Məsələ ilə bağlı politoloq İlyas Hüseynov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Hindistan və Pakistan arasında hərbi toqquşmaların baş verməsi istisna deyil. "Pakistan ilə Hindistan arasında hərbi-siyasi vəziyyət, həqiqətən daha da gərginləşir. Hər iki tərəf bir-birinə qarşı müxtəlif səviyyələrdə bəyanatlar və ittihamlar səsləndirir. Eskalasiyanın artması hər iki nəhəng nüvə dövləti arasında hərbi toqquşmalara gətirib çıxara bilər. Belə bir vəziyyətin baş verməsi, şübhəsiz ki, Cənubi Asiyada çox böyük dağıntılara səbəb olacaq, regionu çox ağır fəlakətə düçar edəcək. Belə təhlükəli halların qarşısının alınması üçün diplomatik danışıqlara ehtiyac var, yəni Pakistan və Hindistan masa arxasında problemləri həll edə bilərlər. Eyni zamanda, beynəlxalq və regional güc mərkəzləri, eləcə də müəyyən beynəlxalq təşkilatlar Pakistan ilə Hindistan arasında diplomatik danışıqların təşkil olunmasında vasitəçilik edə bilərlər. ABŞ, Rusiya və Çinin vasitəçi qismində çıxış etmələri mümkündür. Habelə Türkiyə də bu prosesdə vasitəçi qismində çıxış edə bilər. Bildiyimiz kimi, Türkiyənin həm Pakistan, həm də Hindistanla çox güclü diplomatik münasibətləri var. Cənubi Asiya regionunda hər hansı riskli toqquşmanın qarşısının alınması mütləq xarakter daşıyır. Ona görə ki, hazırda beynəlxalq münasibətlər sisteminin özündə çox ciddi həssas dönəm yaşanır. Növbəti Hindistan-Pakistan müharibəsi nəinki bu regiona, hətta bütün beynəlxalq sistemə mənfi təsir göstərəcək".

*Yunis ABDULLAYEV*

# Kreml 3 gün, Kiyev 30 gün tələb edir...

## Rusiyanın atəşkəs təklifi Ukrayna tərəfindən birmənalı qarşılanmadı

Rusiya Prezidenti Vladimir Putin 8-10 may tarixlərində Ukraynada müvəqqəti atəşkəs rejiminin tətbiq olunması barədə göstəriş verib. Putinin atəşkəs qərarı Moskvada İkinci Dünya müharibəsində Qələbə Gününün qeyd olunduğu tədbirlərlə bağlıdır. Kremlin yaydığı rəsmi məlumatda qeyd olunur ki, bu qərar həm də sülh danışıqlarına şərait yaratmaq məqsədi daşıyır. Ukrayna rəhbərliyinin Kremlin atəşkəs təklifinə cavabı isə gecikməyib - rəsmi Kiyev bu təklifi məqbul hesab etməyib. Ukrayna xarici işlər naziri Andrey Sibiqa özünün "X" sosial şəbəkə hesabında bildirib ki, Ukrayna uzunmüddətli, etibarlı və tam atəşkəsi dəstəkləməyə hazırdır və Moskvanı dərhal 30 gün müddətinə atəşkəs elan etməyə çağırır: "Rusiya həqiqətən sülh istəyirsə, atəşi dərhal dayandırmalıdır. Niyə mayın 8-ni gözləyək? Əgər istənilən tarixdə və 30 gün müddətinə atəşi dayandırmaq mümkündürsə, niyə bunu ancaq parad üçün edək? Ukrayna davamlı, etibarlı və tam atəşkəsi dəstəkləyir. Biz daim bunu təklif edirik, lakin ən azı 30 gün müddətinə", - deyə A.Sibiqa vurğulayıb.

Ukrayna Prezidenti Ofisinin rəhbərinin müşaviri Darya Zarivnaya Kiyevin Moskvanın 8-11 may atəşkəs təklifini rədd etdiyini bəyan edib - o, qeyd edib ki, bu, Putinin taktiki siyasi oyunudur. ABŞ Prezidenti Donald Tramp isə Rusiya ilə Ukrayna arasında müvəqqəti deyil, daimi atəşkəsin elan olunmasını istəyir. Ağ Evin sözçüsü Kerolayn Livit jurnalistlərə açıqlamasında deyib ki, Tramp hər iki ölkənin liderlərini bu istiqamətdə ciddi addımlar atmağa çağırır: "Prezident açıq şəkildə bildirib ki, ilk növbədə ölümlərin qarşısını almaq, qan tökülməsini dayandırmaq üçün daimi atəşkəs görmək istəyir. O, nikbin olsa da və razılığa gəlməyin mümkünlüyünə inansa da, eyni zamanda, həm də realistdir və anlayır ki, hər iki lider çıxış yollarını müzakirə etmək üçün masa arxasına gəlməlidir. Prezidentin Zelenski ilə görüşü onun bu işə çox səy və vaxt sərf etdiyini göstərir, çünki o, sülhməramlı prezident olmaq istəyir," -deyə K.Livit bildirib.

### Kreml mesaj verir

Məsələ ilə bağlı politoloq Tural İsmayilov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Moskva qısamüddətli atəşkəs təklif etməklə həm Ukraynaya, həm də Qərblə danışıqlara hazır olduğu mesajını verir: "Rusiya Ukrayna ilə müharibənin sona çatmasında maraqlıdır, hətta bu istiqamətdə canfəşanlıq da göstərir. Moskvanın bu müharibəni davam etdirmək üçün imkanları, gücü tükənmək üzrədir. Kremldə çox yaxşı başa düşürlər ki, bu müharibə Rusiyanın iqtisadiyyatına və insan kapitalına çox böyük mənfi təsir göstərir. Ona görə də Moskva müharibənin tez bir zamanda bitməsini istəyir. O ki qaldı, Moskvanın Kiyevin 30 günlük atəşkəs təklifinə birmənalı yanaşmamasına, Rusiya hesab edir ki, bu müddət ərzində Ukrayna ordusu yenidən toparlanaraq hücumlar təşkil edə bilər. Rusiya rəhbərliyi üç-dörd günlük atəşkəs təklif etməklə həm danışıqlara hazır olduğu mesajını verir, həm də sülh danışıqlarının qısamüddətli olmasını istəyir. Moskva Ukrayna ilə uzun müddət davam edəcək danışıqlara getmək istəmir".




### Danışıqlar davam edəcək...

"Zelenski hakimiyyətinin Rusiya ilə danışıqlara getməsi isə inandırıcıdır. Düzdür, rəsmi Kiyevin müəyyən tələbləri var, Krım məsələsində güzəştə getmək istəmir. Amma Zelenski hakimiyyəti çox yaxşı anlayır ki, Rusiya ilə danışıqlara getmədən sülhün əldə edilməsi qeyri-mümkündür. ABŞ Rusiya-Ukrayna münaqişəsinin nizamlanması üzrə danışıqlara vasitəçilik etsə də, müharibənin dayanması, atəşkəsin elan olunması, sülh məsələsində hansısa çərçivə sazişinin imzalanması üçün mütləq hər iki ölkənin rəsmiləri bir masa arxasına gəlməlidir. Hesab edirəm ki, Zelenski Rusiya ilə danışıqlara razı olacaq. Sözsüz ki, yaxın üç-dörd ay ərzində Putin ilə Zelenski arasında birbaşa danışıqların keçirilməsi mümkün görünmür, ancaq danışıqlar işçi qrupları səviyyəsində aparılacaq," -deyə T.İsmayilov vurğulayıb.

### Daimi atəşkəs üçün qarşılıqlı güzəştlər...

Politoloqun sözlərinə görə, daimi atəşkəs üçün hər iki tərəf qarşılıqlı güzəştlərə getməlidir; "Rusiya-Ukrayna münaqişəsində xeyli məsələlər var ki, onların həlli o qədər də asan deyil. Təbii ki, daimi atəşkəs üçün həm Rusiya, həm də Ukrayna qarşılıqlı güzəştlərə getməlidir. Amma Ukraynada kimin hakimiyyətə gəlməsindən asılı olmayaraq, Kiyev öz ərazilərini heç bir zaman Rusiyaya güzəştə getməyəcək. Bu baxımdan yaxın dövrlərdə belə bir atəşkəsə nail olmaq qeyri-mümkündür".

*Yunis ABDULLAYEV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Müxtəlif mədəniyyətlərin sintezi...

## Beynəlxalq Caz Günüdür

Haqqında danışacağımız musiqi janrının vətəni Yeni Orlean sayılır. Amerikada yaşayan qaradərililərin ritmik musiqiləri ilə ağ dərililərin xalq musiqilərinin qarışığından yaranmış janrın dünya musiqi ictimaiyyəti tərəfindən qəbul edilməsi isə XIX əsrin sonu XX əsrin əvvəllərinə təsadüf edir. Caz vaxtı ilə ABŞ-da istismar edilən hüquqsuz zənci əhalisi, nə vaxtsa öz vətənlərindən didərgin salınmış qara qulların əcdadları arasında yaranmış musiqi idi.

Hər il aprelin 30-u dünyada Beynəlxalq Caz Günü kimi qeyd edilir. 2012-ci ildə UNESCO tərəfindən elan edilən bu gün dünyanın cazsevər ölkələrində keçirilən konsert proqramları ilə yadda qalır. Əlamətdar gün hər il dünyanın 190-dək ölkəsində qeyd edilir.

### Yeni Orleandan dünyaya...



Tarixi qədim olan cazın belə gec tanınmasının, sözsüz ki, səbəbləri var. Musiqiçilər caz haqda danışarkən bildirilər ki, bu janrın Yeni Orleanda deyil, Amerikanın digər bir bölgəsində yaranması mümkün deyildi. Çünki caz Yeni Orleanın bütün xarakterini, mühitini özündə əks etdiri. Bu şəhər öz səs-küyü, şənliyi, ən başlıcası, buradakı qaradərili insanlarla daha çox özünüifadəyə imkan verməsi ilə fərqlənirdi. Bu da həlledici bir faktdır ki, Avropadan Cənubi Amerikaya köçmüş ilk qaradərili kolonistlər nəslinin xatirəsinə ucaldılmış yeganə heykəl məhz Yeni Orleandadır.

### Cazın inkişafı mərhələləri...

“Ragtime”: Bu mərhələyə əsasən keçmişdə mərasimlərdə söylənilən mahnılar aid edilir. 1917-ci ilə qədər davam etmiş bu mərhələnin ən məşhur caz ustası Elli Roli Martondur. Təəssüf ki, bu dövrə aid heç bir caz nümunəsi qalmayıb.

“Blues”: Amerikalı qaradərili kölələrin işləyərkən söylədikləri “xalq mahnıları” olan “Blues” cazın meydana gəlməsində böyük rol oynayıb. “Blues” ifadə məzmunu baxımından zəncilərin daxili kədərini, çətinliklərini ifadə edir.

“Hot caz”: Artıq bu dövrdə caz daha da inkişaf edib, səhnəyə yol tapa bildi. “Hot caz” dövründə bütün caz ustaları öz üslublarını formalaşdırdı.

“Swing”: “Hot caz”ın davamı və daha təkmil formasıdır. Bu dövrdə caz bütün sərhədlərini müəyyənləşdirib və tam bir musiqi janrı kimi özünü təsdiq edib. Bu dövrün əsas caz ustaları Louis Armstrong, Colemas Havvkins, Lester Young, Roy Eldridge, Glenn Miller kimi sənətkarlar olub.

### İnsanı göz yaşı həddinə gətirən janr...



Ağdərili amerikalılar qaradərili qulların mahnı və rəqslərini vəhşi təbiətin məhsulu kimi dəyərləndirirdilər. Avropa musiqisinin ənənəsinə alışmış qulaqlar bu musiqidə ancaq xaos və ahəngsizlik eşidirdi. Təxminən XIX əsrə qədər bu musiqini tədqiq etmək heç kimin ağlına gəlmirdi. Cazın primitiv olduğu qədər də intellektual, insanı göz yaşları həddinə gətirən musiqi janrı, müxtəlif mədəniyyətlərin sintezinin məhsulu olduğunu ağ dərili amerikalılar, eləcə də avropalılar sonralar başa düşdülər.

Caz onu qəbul etmək istəyən və istəməyən bütün xalqların musiqisinə daxil olmuş, hopmuş bir musiqi janrıdır. Hətta SSRİ kimi totalitar rejimə qulluq edən bir ölkə belə bu musiqinin sərhədləri aşmaq qüdrəti qarşısında aciz olub. Caz musiqiyə melodiya baxımından böyük yeniliklər gətirdi. Azərbaycanda da caz janrı kifyət qədər populyardır - bu janrın ölkəmizdə ən görkəmli nümayəndələri sırasında isə Vaqif və Əzizə Mustafazadələrin adlarını çəkmək olar.

*Yeganə BAYRAMOVA*

# “Ümumdünya Hörümçək Toru”

## Beynəlxalq internet şəbəkəsi 32 “yaşa çatdı”...

Bəşər tarixinin ən böyük ixtiralarından biri internetdir. Etiraf edək ki, internet bu gün hər birimizin həyatının ayrılmaz bir parçasına çevrilib. İnternet ümumi mənada “qlobal şəbəkədə birləşdirilmiş kompüterlərin məcmusu” deməkdir. Faktiki olaraq internet bütün dünyada milyonlarla kompüter, proqram, informasiya bazaları, fayllar və əlbəttə ki, insanlar arasında əlaqə yaradan şəbəkələrin toplumudur. Çox vaxt internet terminінə sinonim kimi “WWW” (World Wide Web - ingiliscə “Dünya Hörümçək Toru”) termini işlədilir.

### Bu gün saytların sayı 1,1 milyarddan çoxdur



1993-cü ilin 30 apreli dünya miqyasında mühüm və ən geniş ünsiyyət şəbəkəsi olan “World Wide Web”-in (www) yaranma tarixidir. “Ümumdünya Hörümçək Toru” mənasına gələn “World Wide Web” HTML təməlli “web” səhifələrin yaradılmasına təkan verib. Bununla da artıq internet qloballaşmağa başladı. Bunun üçün dünya İsveçrədə, CERN-də işləyən bir kompüter proqramlaşdırıcısı Tim Berners Liyə borcludur.



1993-cü ilin aprelində “World Wide Web” şəbəkəsində cəmi 623 sayt var idi və onlara giriş çox məhdud idi. Bu gün saytların sayı 1,1 milyarddan çoxdur və istifadəçilərin sayı artıq 5 milyardı ötüb. Əlbəttə ki, 32 il ərzində internetdə dəyişən təkcə saytların sayı deyildi.

### Hər şey necə başladı?

1980-ci illərin sonlarında Avropa Nüvə Tədqiqatları Təşkilatının (CERN) yüzlərlə ölkədən minlərlə elm adamının məlumat mübadiləsini sürətləndirməyə imkan verən texnologiyaya ehtiyacı var idi. Proqramçı Tim Berners-Li o zaman CERN üçün daxili şəbəkə qurmaq üzərində işləyirdi. 1989-cu ildə o, istənilən yerdən əldə edilə bilən qlobal hipermətn sistemi üçün layihə təklif etdi. Məhz bu layihə bugünkü internetin əsasını təşkil etdi və onun yaradıcıları Berners-Li ilə həmkarı Robert Cayo oldular.

Artıq 1991-ci ilin yanvarında yuxarıda adları çəkilən mütəxəssislər tərəfindən hazırlanmış texnologiya CERN-dən kənara çıxdı və digər tədqiqat institutlarının istifadəsinə verildi. Nəhayət, 23 avqust 1991-ci ildə geniş ictimaiyyət bu texnologiyaya giriş əldə etdi. Sonrakı 2 il ərzində internetdə cəmi 50 vebsayt peyda oldu.

### Brauzerlər və internetin yayılması

1993-cü ildə CERN WWW protokolunu və kodunu istifadəçilər üçün pulsuz etdi, bu da onun daha geniş tətbiqinə şərait yaratdı. Elə həmin il NCSA quraşdırılmış şəkilləri göstərə və HTTPd serveri tərəfindən işlənmiş formaları təqdim edə bilən qrafik brauzer olan “Mosaic Web Browser”i buraxdı. Bu brauzerin yaranması ümumdünya internet şəbəkəsinin şöhrətini daha da artırdı və bir ildən az müddətdə artıq minlərlə sayt istifadəyə verildi.

Növbəti il Marc Andreessen və Cim Klark “Netscape”-ni təsis etdi və “Navigator” brauzerini buraxdılar. Ardınca “Java” və “JavaScript” gəldi. “Netscape” qısa bir zamanda dominant brauzer oldu. 1995-ci ildə “Netscape” ictimaiyyətə açıldı, internet səs-küyünə səbəb oldu və dot-com qabarcığını işə saldı.

Tezliklə “Microsoft” öz internet brauzerini yaratdı. “Explorer” sözdə brauzer müharibəsinin başlanmasına səbəb oldu. Növbəti 14 ildə “Windows” ilə birləşdiyi üçün “İnternet Explorer” dominant brauzer oldu.

İnternetin faydaları qədər gənc nəslin inkişafında ziyanının da olduğu söylənilir. İnternetdən səmərəsiz şəkildə istifadə edən hər kəs günlərini məhv edir. Lakin bütün günahı tam olaraq internetin üzərinə də yıxa bilmərik. Böyüklər, gənclər, uşaqlar - hər kəs internetdən pis və ya yaxşı, başqa sözlə, istədiyi şəkildə istifadə edir. Bu, onların öz seçimidir...

*Yeganə BAYRAMOVA*

## İdman

### Rüdiger üçün mövsüm vaxtından əvvəl başa çatıb

İspaniyanın “Real Madrid” komandasının futbolçusu Antonio Rüdiger zədə səbəbindən mövsümün qalan matçlarında oynamayacaq.

AZƏRTAC klubun rəsmi saytına istinadən xəbər verir ki, İspaniya Kral Kubokunda “Barselona” ilə final oyununda (2:3) zədələnən almaniyalı müdafiəçi dizindən əməliyyat olunub.



Onun təqribən 6-8 həftə yaşıl meydanlardan kənarda qalacağı gözlənilir. Bu isə o deməkdir ki, təcrübəli oyunçu üçün mövsüm vaxtından əvvəl başa çatıb.

Qeyd edək ki, Antonio Rüdiger bu mövsüm “Real Madrid”in heyətində 49 matçda iştirak edib.

### Güləş üzrə Respublika turnirinə yekun vurulub

Masallı Olimpiya İdman Kompleksində güləş üzrə Respublika turniri keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Güləş Federasiyasının dəstəyi ilə baş tutan yarışda ölkənin müxtəlif şəhər və rayonlarından olan yeniyetmə sərbəst güləşçilər iştirak ediblər.

U-15 yaş qrupu üzrə təşkil edilən turnirdə İsa Nurullayev (32 kiloqram, Masallı), Fərid Qasımov (35 kiloqram, Gimnaziya), Sadiq İsmayılov (38 kiloqram, AHİTA), Ramal Hacıyev (41 kiloqram, Gəncə), Əli Baloğlanov (44 kiloqram, Masallı), Zirəddin Rzayev (48 kiloqram, Lənkəran), Mircəlal Hüseynov (52 kiloqram, Gəncə), Ruhid İspərov (57 kiloqram, AHİTA), Siyasət Dadaşzadə (62 kiloqram, Lənkəran), İslam Rəcəbli (68 kiloqram, AHİTA) və Ayxan Tağılı (75 kiloqram, Şağan) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Qeyd edək ki, 200-dən artıq güləşçinin qatıldığı yarışı beynəlxalq və milli dərəcəli hakimlər idarə ediblər.



### “Liverpul” yeni mövsüm üçün 2 futbolçu transfer edəcək

Futbol üzrə İngiltərə Premyer Liqasında 2024-2025-ci illər mövsümünün qalibi olan “Liverpul” komandası yeni mövsüm üçün heyətlə bağlı işlərə indidən başlayıb.

AZƏRTAC xarici mətbuata istinadən xəbər verir ki, Mersisayd təmsilçisi yay transfer dövründə iki mövqeyə oyunçu alacaq. Həmin futbolçular sol cinah müdafiəçisi və hücumçu olacaq.



Namizədlər arasında “Bornmut”dan Din Höysen ilə Miloş Kerkez və “Nyukasl”dan Aleksander İsak var.

Qeyd edək ki, “Liverpul” daha əvvəl Məhəmməd Salah və Vircil van Deyklə müqavilənin müddətini uzadıb.

### “Böyük Dəbilqə”nin ikiqat qalibi diskvalifikasiya edilib

Avstraliyalı tennisçi Maks Pursel antidopinq qaydalarını pozduğuna görə diskvalifikasiya edilib. AZƏRTAC xəbər verir ki, bu barədə Beynəlxalq Tennis Dürüstlük Agentliyi (ITIA) məlumat yayıb. İdmançı 18 ay müddətində bütün yarışlardan uzaqlaşdırılıb.

Tennisçi 2023-cü ilin dekabrında iki dəfə 500 millilitrdən çox venadaxili infuziya aldığını etiraf edib.



Qeyd edək ki, Maks Purse iki dəfə “Böyük Dəbilqə” turnirinin qalibi olub.

### “Sumqayıt”ın kapitanı üçün yubiley oyun

“Sumqayıt”ın kapitanı Vüqar Mustafayev Azərbaycan çempionatlarında 250-ci oyununu keçirib. AZƏRTAC Peşəkar Futbol Liqasının rəsmi saytına istinadla xəbər verir ki, “Sumqayıt”ın kapitanının yubileyi Misli Premyer Liqasının XXXII turuna təsadüf edib. O, “Neftçi” ilə ev matçına (2:2) start heyətində çıxıb. 31 yaşlı futbolçu 250 oyunda 2 qola imza atıb.

Vüqar Mustafayev Premyer Liqada 5 klubun formasını geyinib. O, “Bakı”da 16, “Simurq”da 12, “Qarabağ”da 8 (1 qol), “Zirə”də 77 (1 qol), “Sumqayıt”da 137 dəfə şans qazanıb. O, ölkə çempionatları tarixində 250 və ya daha çox oyun keçirən 77-ci futbolçudur.

Qeyd edək ki, onun debütü 2013/2014-cü illər mövsümündə gerçəkləşib. Vüqar 2013-cü il noyabrın 22-də “Bakı” - “Xəzər Lənkəran” görüşündə (3:0) meydana çıxıb.




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4949**
**Sifariş: 897**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova